# XANIMLARI ƏN ÇOX HƏYƏCANLANDIRAN HƏDİYYƏLƏR



8 Martda kişiləri ən çox düşündürən sevdikləri, dəyər verdikləri xanımlara alacaqları hədiyyələrdir. Zövqlər də, istəklər də, imkanlar da fərqlidir. Bəzi xanımlar üçün xoş bir söz ən dəyərli hədiyyə sayılırsa, digərinin arzusu maddiyatdan yanadır.

8 Mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Bu bayramın da əsas xüsusiyyəti qadınların hansısa bir formada qiymətləndirilməsidir. Bu qiymətləndirmələrin ən populyarı qadınlar üçün hədiyyələrin alınmasıdır.

Biz də tanınmış xanımlarımızın hədiyyə istəklərini sorğuladıq. Soruşduq ki, bu gün onlara hansı hədiyyələr alınsa, daha xoşbəxt olarlar? Bu sualı öz sahəsində uğur əldə etmiş xanımlarımıza ünvanladıq.

SƏHİFƏ 7-də

## PREZİDENT AZƏRBAYCAN QADINLARINI TƏBRİK EDİB

Prezident İlham Əliyev 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayıb. Təbrikdə bildirilir ki, Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zaman üzərində formalaşmışdır.



SƏHİFƏ 2-də


Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
8 MART CÜMƏ 2024 I 09 (4160) Qiyməti - 40 qəpik www.kaspi.az
‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB




## ERMƏNİSTAN ACLIQ TƏHLÜKƏSİLƏ ÜZ-ÜZƏ

Ermənistanda kənd təsərrüfatı elə vəziyyətə düşüb ki, ərzaq təhlükəsizliyinə ciddi təhdidlər var. Yaxın iki ildə bu sahədə ciddi islahatlar aparılmasa, erməni dövləti aclıq təhlükəsi ilə üzləşə bilər.

SƏHİFƏ 4-də



## “MAKLER EVLƏRİ” İLƏ BAĞLI NARAZILIQLAR ARTIR

Sənədsiz evlərin sayğaclaşdırılması ilə bağlı yeni qaydalar qüvvəyə minib. Bu qaydalara görə, sənədsiz evlərdə kommunal xidmətlərlə bağlı sayğac quraşdırılması mümkün olmayacaq.

SƏHİFƏ 11-də



## LİMONUN DA TƏBLİĞATA EHTİYACI VAR

“Bu gün İtaliyanın limon yetişdirilən bölgəsinə dünyanın hər yerindən turistlər gedir. Bizdə də bu məhsul var, ancaq təəssüf ki, düzgün təbliğ edə bilmirik. Bu, hansısa xırda şirkətlərin görə biləcəyi iş deyil”.

SƏHİFƏ 13-də

### EKOLOJİ TƏMİZ NƏQLİYYAT SİSTEMİNƏ KEÇİD ÜÇÜN ÖNƏMLİ ADDIM

# ELEKTROMOBİLLƏRDƏN İSTİFADƏ TƏŞVİQ EDİLƏCƏK



Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadə və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsi genişləndiriləcək. Elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerlər ayrılacaq.

**PREZİDENT SƏRƏNCAM İMZALADI**

Prezident İlham Əliyev Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

**ƏHATƏ DAİRƏSİ GENİŞLƏNDİRİLƏCƏK**

Sərəncamla NK elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, həmin məntəqələrin yaradılması işlərinə sahibkarlıq subyektlərinin cəlb edilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Prezidentə təqdim etməlidir.

SƏHİFƏ 2-də

### 45 İSVEÇRƏLİ İÇİNDƏ YEGANƏ ƏCNƏBİ DİREKTOR

## “EVİMİN XANIMI, ÖVLADIMIN ANASI, İŞİMİN DƏ SAHİBİYƏM”



Nərgiz Hacıyeva: “Avropada müxtəlif konfransların, simpoziumların qalibiyəm, amma bir dəfə də öz cibimdən beş avro verib Litvadan Varşavaya getməmişəm. Hədəfim beynimin məhsulunu pula çevirmək idi. Bacardım da. Məqalələr, layihələr yazıb qrant udurdum, qarşı tərəf də biletimi alırdı. Biliyimi pula çevirib 48 Avropa şəhəri gəzmişəm”.

SƏHİFƏ 8-9-da



## SƏRHƏDDƏ NÖVBƏTİ GÖRÜŞ

Azərbaycanla Ermənistan arasında sərhəddə hər iki ölkənin baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mqer Qriqoryanın sədrliyi altında Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların yeddinci görüşü keçirilib.

SƏHİFƏ 3-də



## BU XANIMLAR AZƏRBAYCANIN QÜRURUDURLAR

Qadın idmançılarımız müstəqilliyin ilk illərindən ölkəmizi beynəlxalq arenalarda layiqincə təmsil ediblər. Titullu, tanınmış idmançılarımızla yanaşı, gənc qızların əldə etdiyi uğurlar gələcəyə də ümidlə yanaşmağa əsas verir.

SƏHİFƏ 16-da



Yeni siyasi və iqtisadi güc mərkəzi

SƏHİFƏ 3-də



İran tarixinin ən mənasız seçkisi

SƏHİFƏ 5-də



“Motivasiyam Vətəni sevməkdir”

SƏHİFƏ 6-da



Əllərdən başlayan gözəllik

SƏHİFƏ 14-də



Azərbaycanın ilk balerinası

SƏHİFƏ 15-də



# Prezident Azərbaycan qadınlarını təbrik edib

Prezident İlham Əliyev 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayıb. Təbrikdə bildirilir ki, Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zəmin üzərində formalaşmışdır.

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Dövlət başçısı bildirib ki, biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik: "İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq qazandıran dolğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər".




# SOCAR Türkiyədə abonentlərinin sayını artırır

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki "SOCAR Türkiyə" törəmə şirkəti Kayseri və Bursa şəhərlərinin qazlaşdırılmasına 4 ildə 170 milyon ABŞ dolları həcmində investisiya yatırıb. "Report"un Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə "SOCAR Türkiyə"nin Təbii Qaz Biznes Bölməsinin rəhbəri Fuad İbrahimov bildirib. Onun sözlərinə görə, bu investisiyalar 2019-2023-cü illər ərzində "Kayserigaz" və "Bursagaz" şirkətlərinin fəaliyyətinə yatırılıb. O qeyd edib ki, 4 ildə "Bursagaz" ve Kayserigaz" ümumi abonentlərinin sayı 1,9 milyona çatıb: "Bu abonentlərin 1,2 milyonu "Bursagaz"ın payına düşüb ki, bununla da şirkət abonent sayına görə 4-cü ən böyük qazpaylayıcı şirkətidir. Bursa şəhərinin 11 rayonunda şirkətin qaz şəbəkəsinin uzunluğu 7 561 kilometrə çatıb".

F.İbrahimov həmçinin bildirib ki, "Kayserigaz" şirkətinin ümumi abonentlərinin sayı 700 minə çatıb: "Kayseridə qaz şəbəkəsinin ümumi uzunluğu isə 6 675 kilometr təşkil edib. Yeni yatırımlarımızla abonentlərin sayı artacaq".

Bursa və Kayserinin Türkiyənin ən məşhur şəhərlərindən ikisi olduğuna diqqət çəkən F.İbrahimov deyib ki, SOCAR bu istiqamətdə şəbəkə sərmayələrini intensiv şəkildə davam etdirir və abunəçilərinin sayını günü-gündən artırır: "Bursagaz" və "Kayserigaz" birlikdə 2024-cü ilin sonuna qədər qaz şəbəkəsinin uzunluğunu 14 770 kilometrə çatacağını təxmin edirik".

# ELEKTROMOBİLLƏRDƏN İSTİFADƏ TƏŞVİQ EDİLƏCƏK




**Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadə və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsi genişləndiriləcək. Elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerlər ayrılacaq.**

Prezident İlham Əliyev Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında Sərəncam imzalayıb.

### HÜQUQİ BAZANIN FORMALAŞDIRILMASI ZƏRURİDİR

Sərəncamda deyilir ki, karbon emissiyalarının azaldılmasında, enerji səmərəliliyinin yüksəldilməsində və nəqliyyat sənayesində innovasiyaların təşviqində elektrik mühərrikli nəqliyyat vasitələrinin rolunu nəzərə alaraq, dayanıqlı və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması daha təmiz və dayanıqlı nəqliyyat sisteminə keçidi sürətləndirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, zəruri infrastrukturun inkişafını, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

### ARDICIL DÖVLƏT SİYASƏTİNİN TƏZAHÜRÜ

Sərəncamda qeyd edilir ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

## NAZİRLƏR KABİNETİ BİR AY MÜDDƏTİNDƏ TƏKLİFLƏRİNİ TƏQDİM ETMƏLİDİR

Sərəncamla Nazirlər Kabineti elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, həmin məntəqələrin yaradılması işlərinə sahibkarlıq subyektlərinin cəlb edilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Energetika Nazirliyinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerləri bir ay müddətində müəyyən etməli, elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması, zəruri infrastrukturun yaradılması, habelə həmin məntəqələrin dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən müvafiq tədbirlər görülməsini təmin etməlidir.

Bu Sərəncamın 1.3-cü bəndində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında cari ilin və növbəti ilin dövlət büdcəsindən müvafiq vəsait ayrılması üçün tədbirlər görməli və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.



TÜRKDİLLİ DÖVLƏTLƏR İLƏ QARŞILIQLI ƏLAQƏLƏR GENİŞLƏNDİRİLİR

# YENİ SİYASİ VƏ İQTİSADİ GÜC MƏRKƏZİ

2023-cü ildə Azərbaycanla TDT-yə üzv ölkələr arasında ticarət dövriyyəsinin dəyəri təxminən doqquz milyard ABŞ dolları təşkil edib. Türkdilli ölkələr arasında əsas ticarətimiz Türkiyə ilə olub.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın türkdilli ölkələrlə qarşılıqlı münasibətlərində yeni dönəm başlayıb. Bundan sonra ölkəmizin xarici siyasət kursunun əsas istiqamətini təşkil edəcək Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişləndirilməsi, əlaqələrin daha da dərinləşdiriləcəyinin anonsunu Prezident İlham Əliyev bir müddət əvvəl andiçmə mərasimində vermişdi.

**ŞUŞADA ZİRVƏ GÖRÜŞÜ**

"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - deyə Prezident İlham Əliyev bildirib.

Artıq bu istiqamətdə konkret addımlar da atılmaqdadır. Azərbaycan TDT-nin iyulda keçiriləcək qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Özü də bu görüş Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təşkil olunacaq.

**DOQQUZ MİLYARD DOLLARLIQ TİCARƏT DÖVRİYYƏSİ**

Türkdilli ölkələr arasında siyasi, mədəni və digər istiqamətlərdə əlaqələri daha da gücləndirən başlıca amil təbii ki, iqtisadi münasibətlərin dərinləşdirilməsidir. İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov "Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusunda konfransda çıxışı zamanı bildirib ki, 2023-cü ildə Azərbaycanla TDT-yə üzv ölkələr arasında ticarət dövriyyəsinin dəyəri təxminən 9 milyard ABŞ dolları təşkil edib. "Türkdilli ölkələr arasında əsas ticarətimiz Türkiyə ilə olub", - deyə o qeyd edib.

Ümumi qiymətləndirmələrə görə, ticarətin asanlaşdırılması üzrə Strategiya sənədi TDT çərçivəsində ticarət əlaqələrinin inkişafına və biznes mühitinə müsbət təsir göstərəcək. Sənədin icrası ilə bağlı tədbirlər planının hazırlanması məqsədilə bir sıra istiqamətlər də müəyyən edilib.



## TDT HƏM DƏ YENİ GÜC BİRLİYİDİR

Ölkəmizin coğrafi mövqeyi, tranzit imkanları, nəqliyyat dəhlizlərinin kəsişməsi qovşağında yerləşməsi Mərkəzi Asiyadakı türk dövlətləri üçün də geniş imkanlar açır. Artıq Şərq-Qərb nəqliyyat dəhlizinin imkanlarının genişləndirilməsi istiqamətində TDT üzvü olan və olmayan türkdilli dövlətlər arasında ən ali səviyyədə çoxsaylı razılaşmalar və qarşılıqlı səfərlər həyata keçirilir. Beynəlxalq səviyyədə artan təhdidlər və çağırışlar fonunda regional təşkilatların əhəmiyyətinin artdığının şahidiyik. Bu çağırışlara qarşı dayanıqlı olmaq regional əməkdaşlıq imkanlarının dərinləşdirilməsindən keçir. TDT çərçivəsində üzv ölkələrin sahib olduqları resurslar, həmçinin dil, din, soykök yaxınlığı bu potensialın imkanlarını tam olaraq üzə çıxartmağa, ümumi maraqların təminino istiqamətlənməsinə şərait yaradır.

TDT həm də yeni güc birliyidir. Bu birliyin formalaşdırılmasında Türkiyə ilə Azərbaycan müstəsna rola malikdir. Təşkilatın bir güc mərkəzinə çevrilməsinin vacibliyi hər iki dövlət rəhbərinin çıxışlarında dəfələrlə səsləndirilib. Dünyaya qardaşlığın nümunəsini göstərən Türkiyə ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsi, müttəfiq, strateji tərəfdaş statusu digər türkdilli dövlətlərin də diqqətini cəlb edir.

## TÜRKMƏNİSTAN DA TAMHÜQUQLU ÜZV OLMAQ İSTƏYİR



Artıq təşkilatda müşahidəçi statusunda olan dövlətlər də tamhüquqlu üzv olmaq istiqamətində addım atmaq niyyətlərini ifadə edirlər. "Türkmənistan bu il TDT-nin tamhüquqlu üzvü ola bilər", - bu barədə Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türkiyənin Antalya şəhərində təşkil olunan III Diplomatiya Forumu çərçivəsində bildirib. Onun sözlərinə görə, bu qərar ola bilsin ki, Aşqabadda Maxtumkuli Fraqinin 300 illik yubileyinə həsr olunmuş dövlət başçılarının Zirvə görüşündə açıqlansın.

Qeyd edək ki, 2009-cu il oktyabrın 3-də Naxçıvanda imzalanmış anlaşma ilə yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası TDT adı ilə fəaliyyətini davam etdirir. Təşkilatın üzvləri Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandır. Müşahidəçi statusunda dövlətlər isə Türkmənistan, Macarıstan və Şimali Kiprdir.

# SƏRHƏDDƏ NÖVBƏTİ GÖRÜŞ

Azərbaycanla Ermənistan arasında sərhəddə hər iki ölkənin baş nazirlərinin müavinləri Şahin Mustafayev və Mqer Qriqoryanın sədrliyi altında Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın yeddinci görüşü keçirilib.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb. Məlumata görə, tərəflər delimitasiya məsələləri üzrə fikir mübadiləsi aparıb və hər iki komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılmasına başlayıb. Habelə delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.



Tərəflər komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırmasını ən qısa zamanda başa çatdırmaq barədə sövdələşiblər.

Onlar, həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# ERMƏNİSTAN ACLIQ TƏHLÜKƏSİLƏ ÜZ-ÜZƏ

**Qonşu ölkədə kənd təsərrüfatı elə vəziyyətə düşüb ki, artıq ölkənin ərzaq təhlükəsizliyinə ciddi təhdidlər var. Əgər yaxın iki il ərzində sözügedən sahədə ciddi islahatlar aparılmasa, erməni dövləti aclıq təhlükəsi ilə üzləşə bilər.**

FUAD ABASOĞLU

Ermənistan Statistika Komitəsinin rəqəmlərinə və dövlət strukturlarının açıqlamalarına əsasən, bu ölkədə kənd təsərrüfatı sahəsində tənəzzül sürətlə davam edir. Ötən il ümumi geriləmə 0.7 faiz təşkil edib. Rəsmilərin bu məsələ ilə bağlı etirafları sektordakı ciddi problemlərin hələ uzun müddət həll olunmayacağına bir işarədir. Ekspert və iqtisadçıların proqnozları da erməni dövlətində aqrar sektorda tənəzzülün ildən-ilə artacağı yönündədir. Məsələn, ötən ilin rəqəmlərinə görə, ölkədə kənd təsərrüfatı sektorunda istehsal 1.1 faiz azalıb. 2022-ci ilin rəqəmlərinə də nəzər salsaq, istehsal və balıqçılıq sahələrində 2020-ci ilə nisbətən 3 faiz geriləmə olub. Meşə təsərrüfatı sahəsində isə bu rəqəm 25.9 faiz təşkil edib.

**2030-cu ilə qədər Ermənistandakı otlaqların sahəsi 19-22%, məhsuldarlığı isə 4-10% azalacaq.**

### DÖVLƏT PROQRAMLARINDA KORRUPSİYA VƏ RÜŞVƏT

Hökumət tərəfindən reallaşdırılan proqramlar isə irimiqyaslı xarakter daşımır. Ümumiyyətlə, bu sahədə korrupsiya və rüşvət tüğyan edir. Cari ilin 31 yanvar tarixində Ermənistanın Milli Təhlükəsizlik Xidməti İqtisadiyyat Nazirliyində yoxlamalar aparıb. Nəticədə keçmiş nazir müavini Ani İspiryan və nazirliyin 5 əməkdaşı həbs edilib. Onlar kənd təsərrüfatına dəstək proqramları ilə bağlı irimiqyaslı sui-istifadələrdə ittiham olunurlar. Son proseslər göstərir ki, bu proqramlar səmərəsiz olmaqla yanaşı, həm də korrupsiya elementlərini ehtiva edir.

### KƏNDLƏRDƏN MİQRASİYA VƏ TORPAQLARIN DEQRADASİYASI

Kəndlərdən miqrasiya və kənd təsərrüfatı torpaqlarının deqradasiyası Ermənistanda kənd təsərrüfatının əsas problemlərindən sayılır.

Azsaylı əhalisi olan erməni dövlətində son illər miqrasiya çox ciddi problemə çevrilib. Regionlarda və ucqarlarda məmur özbaşınalığı, korrupsiya və monopoliya kimi problemlər əhalini sürətlə kəndləri boşalmağa vadar edir. Xüsusən də sərhədyanı kəndlərdə əhali problemi getdikcə daha da ciddiləşir. Müstəqil jurnalist və blogerlərin araşdırmalarına görə, Ermənistanda kişilərin olmadığı kəndlər var. Qocaların və uşaqların yaşadığı, gənc və orta yaşlı nəslin kütləvi olaraq Rusiya və digər ölkələrə köç etdiyi kəndlər də mövcuddur. Bu isə aqrar sektora ciddi ziyan vurur.

### MAŞIN-TRAKTOR PARKI HƏDDƏN ARTIQ KÖHNƏLİB

Aqrar sektorun problemləri sırasına maşın-traktor parkının həddən artıq köhnəlməsi, mütəxəssis çatışmazlığı, kənd sakinləri üçün kredit və lizinq proqramlarının əlçatmazlığı kimi faktorları da əlavə etmək lazımdır. Erməni fermerlərin əksəriyyəti kreditlər, faizlər və gündən-günə artan borclarla yüklənir. İnsanların lizinq proqramı vasitəsilə texnika almağa imkan verəcək minimum pulları belə yoxdur.

### QURAQLIQ TAXIL İSTEHSALINA MƏNFİ TƏSİR EDİB

Ermənistanda Kənd Təsərrüfatı Nazirliyi ləğv edildikdən sonra sektorun idarəsinin təhlükə altında olması ilə bağlı narahatlıqlar dəfələrlə səsləndirilib. Ölkədə uzun müddət quraqlıq hökm sürüb. Bu, həm bitkiçiliyə, həm də heyvandarlığa mənfi təsir göstərib.

Məsələn, üzüm məhsulu 25% azalıb. Peşəkar dəstəyin olmaması səbəbindən kartof istehsalında da ciddi azalma qeydə alınıb. Taxılçılıqda da durum acınacaqlı olub. Hökumət tərəfindən bu nəticələri aradan qaldırmaq üçün heç bir addım atılmayıb. Məsələn, müxtəlif suvarma üsullarından istifadə oluna bilərdi, lakin bu edilməyib.

Proqnozlara görə, 2030-cu ilə qədər Ermənistandakı otlaqların sahəsi 19-22%, məhsuldarlığı isə 4-10% azalacaq. Bu, iqlim dəyişikliyi səbəbindən baş verəcək. Nəticədə yem istehsalının həcmi əhəmiyyətli dərəcədə azalacaq ki, bu da öz növbəsində təkcə heyvandarlıq sahəsinə deyil, bütövlükdə Ermənistanın ərzaq təhlükəsizliyinə də mənfi təsir göstərəcək.

## SU ANBARLARINDA SUYUN MİQDARI MİNİMUMA DÜŞÜB



Suvarma suyu ilə bağlı problemin həlli üçün su anbarlarının tikintisi layihələrinin həyata keçirilməsi vacibdir. Amma hökumətin növbəti illər üçün nəzərdə tutulmuş proqramlarında belə layihələrdən söz açılmır. Ermənistan ərazisində hər il təxminən 8 milyard kubmetr su hasil olunsa da, yalnız 2 milyard kubmetr su ölkədə istifadə edilir. Su anbarlarında suyun miqdarı minimaldır. Buna baxmayaraq, su elektrik stansiyaları tam gücü ilə işləyir. Nəticədə bu gün Ermənistanda su anbarlarının vəziyyəti kritikdir. Su ehtiyatlarının qıtlığını ən çox Ararat vadisi və Şirak bölgəsindəki fermerlər hiss edəcək. Artıq mütəxəssislər Göyçə gölündə də suyun səviyyəsinin ciddi şəkildə aşağı düşdüyünü bildirirlər. Ekspertlər qeyd edirlər ki, göldə suyun səviyyəsi 11 santimetr aşağı enib. Gölün kənarında iri rəngli məmurların hektarlarla ərazini əhatə edən villaları var. Suvarma sisteminə müdaxilələr, gölü qidalandıran çayların qarşısının kəsilərək balıq vətəgələri qurulması kimi hallar da müşahidə edilir.

Göründüyü kimi, Ermənistanın qida təhlükəsizliyi ciddi təhlükə altındadır. Əgər yaxın iki il ərzində hökumət bu sahədə ciddi addımlar atmasa, qonşu dövlətdə aclığın başlaması qaçılmaz olacaq.

# İRAN TARİXİNİN ƏN MƏNASIZ SEÇKİSİ




**Ehtimal edilir ki, bu seçkilər yeni böhrana yol aça bilər. Ölkə iqtisadi cəhətdən ağır duruma düşüb, sosial tələblərlə etiraz aksiyaları artıb. İran əhalisinin 60 faizi yoxsulluq həddindədir. Üstəlik, regiondakı proseslər də molla rejiminin ziyanına işləyir.**



AZƏR NURİYEV

Martın 1-də İran xalqı müasir tarixində ən maraqsız seçkilərdən birini keçirib. Parlament və Dini Ekspertlər Şurasına seçkilərdə fəallıq gözlənildiyi kimi, rekord səviyyədə aşağı olub. Dövlət Seçki Mərkəzinin məlumatlarına əsasən, Tehranda seçici fəallığı cəmi 23,5%, ölkə üzrə isə təxminən 38% təşkil edib. Belə ki, səsvermə hüququ olan 61 milyon İran vətəndaşından cəmi 25 milyonu seçkiyə gedib. Bəzi qeyri-rəsmi məlumatlara görə, əslində seçici fəallığı heç 20 faizə də çatmayıb. Bəziləri əvvəldən bəyan edirdilər ki, "mənasız" saydıqları seçkilərə getməmək daha yaxşıdır.

**ETİRAZ AKSİYALARINDAN SONRA İLK SEÇKİ**

Nəticələrə gəldikdə, ölkədə sərt xətt tərəfdarları hakimiyyətlərini daha da möhkəmləndirməyə müvəffəq olublar. Bu, 2022-2023-cü illərdə ölkəni bürümüş kütləvi xalq etirazlarından sonra keçirilən ilk seçki olduğundan bir çox xüsusiyyətləri ilə fərqlənib. Eyni zamanda, bu seçki İbrahim Rəisi hökuməti dövründə baş tutan ilk seçkidir.

Qeyd edək k, İran parlamenti 290 yerdən ibarətdir. Hər 10 ildən bir parlamentdə 20 deputat sayı artırılır. Konstitusiyaya əsasən, beş yer dini azlıqların (xristian, yəhudi və zərdüşti) nümayəndəsi üçün nəzərdə tutulur. Ekspertlər Şurasına səkkiz ildən bir seçki keçirilir. İranın ali rəhbərini müəyyən edən bu qurum 88 müctəhiddən formalaşır. Bu seçkidə 61 milyon 87 min İran vətəndaşının səsvermə hüququ olub. 15 mindən çox vətəndaş deputatlığa namizədliyə namizəd olmaq üçün Daxili İşlər Nazirliyinə müraciət edib. Onların 75 faizinin namizədliyi qeydə alınıb. Mindən çox qadın deputatlığa namizəd olub. Şura üzvlüyünə isə 144 iddiaçı namizədliyini irəli sürüb. Ekspertlər Şurası ali rəhbəri seçən seçkili orqandır. Bu quruma 97 yaşlı ayətullah Əhməd Cənnəti başçılıq edir.



Ehtimal edilir ki, bu seçkilər yeni böhrana yol aça bilər. Ölkə iqtisadi cəhətdən ağır duruma düşüb, sosial tələblərlə etiraz aksiyaları artıb. Əhalisinin 60 faizi yoxsulluq həddindədir. Üstəlik, regiondakı proseslər də molla rejiminin ziyanına işləyir. HƏMAS-İsrail cəbhəsində fələstinlilərin məğlubiyyəti Tehranın Yaxın Şərqdən qovulmasının başlanğıcı ola bilər.

## SOSİAL MEDİAYA TOTAL HÜCUM, FƏALLARIN HƏBSİ

Ali dini lider ayətullah Əli Xamenei seçkiyə ilk gedənlər sırasında olub. O, iranlıları mümkün qədər tez səsverməyə getməyə çağırıb. Xəbərdarlıq edib ki, seçkiləri İranın dostları da, düşmənləri də izləyir. "Dostları sevindirin, düşmənləri ümidsiz edin", - deyə 84 yaşlı Xamenei səs verəndən sonra deyib. Lakin bu da kömək etməyib. Bir sıra tanınmış xadimlər, o cümlədən Nobel Sülh Mükafatı laureatı Nərgiz Məhəmmədi seçkini açıq şəkildə boykota çağırıb, onun nəticəsinin öncədən müəyyənləşdirildiyini deyib. N.Məhəmmədi seçki ilə bağlı sanksiyaların və dünya qınağının "siyasi zərurət və mənəvi vəzifə" olduğunu bildirib. Keçmiş daxili işlər nazirinin müavini Mustafa Taczadə də səsverməyə qarşı çıxıb, ali dini lideri ölkənin böhranlarına laqeydliyinə görə tənqid edib. Qərbi Azərbaycan vilayətində polis ictimai itaətsizliyə, seçkidə iştirak etməməyə çağıran sosial media səhifələrinə görə 50 nəfərin saxlandığını elan edib. Vətəndaşların fikrincə, bu seçkilər hakimiyyəti aşırı mühafizəkarların əlində cəmləşdirəcək. Bu rəylər İranın dini hakimiyyətinin üzləşdiyi çətinlikdən soraq verir. Xorasani Rəzəvi əyalətində parlament seçkilərini boykota çağıran 11 sosial media kanalı bağlanıb. Bu barədə Polis Komandanlığının İnformasiya Təşkilatının Kiber Mərkəzi məlumat yayıb. "Kanallar ictimai rəydə təşviş yaratmaq, hökumətə qarşı təbliğat və seçkilərdə iştirakdan imtinaya çağırış etdikləri üçün bağlanıblar", - məlumatda bildirilib.

İranda parlament seçkilərinin nəticələri ermənilərin sevincinə səbəb olub. Seçilmiş 290 deputatdan ikisi etnik ermənidir. Biri Ara Şahverdyan Tehranda, ikincisi Qeqard Mansuryan İsfahanda yenidən seçilib. Güney Azərbaycanın əsas şəhərlərindən olan Urmiya, Sulduz, Makuda isə kürdlər irəli çıxıb.

## XAMENEİNİN RƏQİBİ EKSPERTLƏR ŞURASINDAN KƏNARDA QALDI

Ekspertlər Şurasına keçirilən seçkilərdə ən diqqət çəkən məqamlardan biri də 25 il bu şuranın üzvü olmuş Ayətullah Sadiq Amoli Laricaninin məğlubiyyəti olub. Mazandaran əyalətindən namizəd olan Amoli Laricani səsvermə nəticəsində dörd yer uğrunda mübarizə aparan beş namizəd arasında beşinci yeri tutub və Ekspertlər Şurasından kənarda qalıb. On il İran Məhkəmə-Ədliyyə Hakimiyyətinin rəhbəri olmuş, hazırda isə Məsləhət Şurasına sədrlik edən Amoli Laricaninin adı bir vaxtlar ölkənin ali rəhbəri postunda ayətullah Əli Xameneini əvəzləməsi ehtimal olunan şəxslər sırasında çəkilirdi. Qeyd edək ki, Amoli Laricani İran parlamentinin keçmiş sədri Əli Laricaninin qardaşıdır. Əli Laricani 2021-ci il prezident seçkilərində namizədliyini irəli sürsə də, Nəzarət Şurası tərəfindən seçkiyə buraxılmamışdı.

Beləliklə, İran son 45 ildə ən mənasız seçkilərindən birini keçirdi. Hakimiyyət sevinsə də, bu, ona baha başa gələ bilər. Əhali prosesə ciddi önəm verməsə də, ölkə barıt çəlləyinə bənzəyir.



BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# “ƏN BÖYÜK MOTİVASİYA VƏTƏNİ SEVMƏKDİR”



## İlham Zəkiyev: “Ölkəmizin bütün şəhərlərində idmançılar üçün lazımi şərait yaradılıb. Biz də Vətənə xidməti idmanda qazandığımız uğurlarla davam etdiririk”.


HAZIRLADI
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

“Sizi kiçik, amma sevgi dolu məktəbimizdə görmək xoşdur” sözləri Paralimpiya çempionu İlham Zəkiyev üçün məktəblilərin dilindən səslənən ən xoş səmimiyyət oldu. Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə reallaşdırdığı “Məktəbdə...” layihəsi növbəti qonağını - ikiqat Paralimpiya çempionu, cüdoçu, üçqat dünya çempionu, səkkizqat Avropa çempionu, Əməkdar məşqçi İlham Zəkiyevi paytaxtdakı 65 nömrəli tam orta məktəbdə qarşıladı.

### ÇEMPİONLUĞA APARAN YOL

“İlham Zəkiyev Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər stadionunda cüdo ilə məşğul olmağa başlayır. Çox qısa bir müddət ərzində uğurlara imza atır, Sumqayıt şəhərində keçirilən yarışda qalib gəlir. Sonra gənclər arasında keçirilən cüdo üzrə Azərbaycan birinciliyində qaliblər arasında yer tutur və sambo üzrə yeniyetmələr arasında Respublika çempionu olur” - deyə çempionun məktəblilərin dilindən səslənən hər kəsə örnək olan həyat hekayəsini zaldakı şagird və müəllimlər maraqla dinləyir: “1998-ci ilin iyun ayında Azərbaycan kubokunu qazanır. Həmin qalibiyyət ona yeniyetmələrin Moskvada keçiriləcək olimpiadasına vəsiqə qazandırır. Lakin Moskvadakı olimpiadaya getmək ona müyəssər olmur. O, düz bir ay sonra həqiqi hərbi xidmətə çağırılır və 2 iyul 1998-ci ildən Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyə başlayır.

Zəkiyev 19 yaşında görmə qabiliyyətini itirməsi nəticəsində çətin vəziyyətə düşür. Ailəsinin və yaxın dostlarının bu müddət ərzində ona dəstək olması İlhama belə çətin dövrü arxada qoymağa kömək edir. Belə bir vəziyyətdə onun böyük idmana qayıtması bir fantaziya kimi qəbul edilə bilərdi. Buna baxmayaraq İlham idmana yenidən qayıtmaq üçün yollar arayırdı: 2002-ci ildə o, o vaxtkı gənclər və idman naziri ilə görüşür. Nazir İlhamın Moskvada müalicə almasına köməklik edir. Lakin rusiyalı həkimlər belə ağır zədə almış insanlara görmə qabiliyyətini qaytarmağa müasir elmin hələlik qadir olmadığını bildirirlər. Moskvadan Azərbaycana qayıdan İlham yenidən Gənclər və İdman Nazirliyinə müraciət edərək hansı idman növü ilə məşğul olaraq yarışmalara çıxa biləcəyi barədə sorğu göndərir. Burada ona Paralimpiya üzrə cüdo yarışlarında iştirak etməyi təklif edirlər. Bundan sonra İlham

> “Müəllimlərimi ikinci valideynlərim sayıram. Onlar mənim həyatımda böyük rol oynayıblar.”

Zəkiyevin hər kəsi heyrətə salacaq uğurları başlayır...

### “MÜƏLLİMLƏRİMİ İKİNCİ VALİDEYNLƏRİM SAYIRAM”

“Siz uşaqlıqda necə şagird olmuşunuz: dəcəl, yoxsa sakit?” - deyə zaldakı heyrət dolu sükutu uşaqlardan birinin sualı pozur. “Mən dəcəl olmamışam, sakit uşaq olmuşam. Dərslərimi də həmişə yaxşı oxumuşam, yaxşı qiymətlər almışam. Çalışmışam ki, mənə görə valideynlərim söz eşitməsin. Məktəbli olarkən ən çox sevdiyim fənlər coğrafiya, tarix və riyaziyyat olub. Siz də dərslərinizi yaxşı oxuyun. Bu, sizin gələcəkdə yaxşı mütəxəssis olmanıza və həyatda layiqli yer tutmağınıza kömək edəcək. İşinizin peşəkarı olmağa çalışın”, - deyə cavab verdi.

“Siz idmanı seçəndə kiminsə həyat yolunu örnək götürdünüz?” - deyə uşaqlardan biri soruşdu: “İdmana həvəs mənə böyük qardaşım Fikrətdən keçdi. O, məndən 3 yaş böyük idi və güləşlə məşğul olurdu. Onun sayəsində mənim də idmana həvəsim yarandı. Əgər siz də idmanı sevirsinizsə, çalışın idman növünü düzgün seçin”.

Şagirdlərdən biri: “Məktəb illərinizi və müəllimlərinizi necə xatırlayırsınız?”- deyə sual ünvanladı: “Oxuduğum məktəbə həmişə gedirəm və müəllimlərimə baş çəkirəm. Müəllimlərimi ikinci valideynlərim sayıram. Onlar mənim həyatımda böyük rol oynayıblar. Təkcə oxumağı, yazmağı öyrətməyiblər, həmçinin həyatı öyrədiblər. Siz də müəllimlərinizi sevin, onlara hörmət edin”.

### “BİZİM BƏXTİMİZ ONDA GƏTİRİB Kİ...”

“Prezident İlham Əliyev tərəfindən “Şöhrət” ordeni ilə təltif olunmusunuz. Bir idmançı üçün dövlətin ali mükafatına layiq görülmək onun üzərinə hansı məsuliyyətləri qoyur?” - deyə soruşan şagirdin sualına “Mən yeganə adamam ki, ölkəmizdə Prezidentin sərəncamları ilə iki dəfə “Şöhrət” Ordeninə layiq görülmüşəm”, - deyə qürurla cavab verdi: “Bizim bəxtimiz onda gətirib ki, idmanı sevən və dəyərləndirən ölkə başçımız var. O, bütün idmançılara böyük diqqət və qayğı göstərir. Ölkəmizin bütün şəhərlərində idmançılar üçün lazımi şərait yaradılıb. Biz də Vətənə xidməti idmanda qazandığımız uğurlarla davam etdiririk. Hər dəfə tatamı üzərinə çıxanda himnimiz çalınanda və üçrəngli bayrağımız dalğalananda bundan böyük xoşbəxtlik və qürur hissi olmur”.







Fotolar: Rüfət Mikayılov /Global Media Group

### “EHTİYAT ETDİYİM RƏQİB YOXDUR”

“Prezident İlham Əliyev həmçinin sizi “cəsurluq və layaqət simvolu” adlandırıb. Bu, sizin üçün nə deməkdir?” - deyə soruşan digər məktəbliyə qonaq “bunlar mənim üçün ən yüksək dəyərdir. Bu fikir mənim üzərimə daha böyük məsuliyyət qoyur və daha çox çalışmağa sövq edir”, - deyə cavab verdi: “Prezident bizi yarışa yola salanda heç vaxt demir ki, gedin, qızıl ya gümüş medal gətirin. Həmişə deyir ki, gedin, ölkəni layiqincə təmsil edin. Qayıdandan sonra o bizi qəbul edir, mükafatlandırır. Bu, bizim üçün ən böyük motivasiyadır”.

“Heç tatamı üzərində erməni rəqibiniz olubmu?” - deyə uşaqlardan biri maraqlandı: “Ermənilər hələ o səviyyəyə çatmayıblar ki, bizə rəqib olsunlar. Ümumiyyətlə, erməni idmançı paralimpiyada yoxdur. Çüdoda da yoxdur. Onlar bu sahədə hələ bircə medal da qazanmayıblar. Başqa rəqiblərə gəlincə, idmanda zəif rəqib olmur. Hər kəs öz ölkəsinin ən yaxşı idmançısı kimi yarışır. Hamı tatamı üzərinə çıxanda “İlhamı udum” deyərək yarışa girir. Mənimsə yarışda ehtiyat etdiyim rəqib yoxdur, əksinə, həmişə rəqiblər məndən çəkinirlər”.

“İdmançının ən böyük motivasiyası nədir?” - deyə soruşan şagirdə cavab belə oldu: “Ən böyük motivasiya Vətəni sevməkdir. Əgər idmançı fikirləşsə ki, o, qalib gəlsə çoxlu pul qazanacaq, onda o, qalib gələ bilməyəcək. Əgər o, qəlbində Vətənə sevgi ilə yarış meydanına çıxsa, bayrağını yüksəklərə qaldırmaq haqqında düşünsə, onda o mütləq qalib olacaq!”




# “Nar” mükafata layiq görülüb

Müştərilərinə sərfəli qiymətlər təqdim edən “Nar” “Qarabağın dirçəlişinə göstərdiyi dəstəyə görə” “Azerbaijan Business award” mükafatı ilə təltif olundu. Mobil operator işğaldan azad edilmiş ərazilərdə satış və şəbəkə infrastrukturunun genişləndirilməsi istiqamətində səylərinə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarının reinteqrasiyası məqsədilə həyata keçirilən layihələrə dəstəyinə görə, bu mükafata layiq görülüb.

Müştərilərin etibarlı şəbəkə əhatəsindən faydalana bilməsi üçün mobil operator Şuşa, Xankəndi, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Xocavənd, Füzuli, Tərtər və Ağdam şəhərlərində ümumilikdə 100-dən çox baza stansiyasını istifadəyə verib. Bununla yanaşı, 2023-cü ilin dekabr ayında “Nar” Xankəndi stadionunda Qarabağ və MOİK komandaları arasında tarixi futbol görüşündə qürurla iştirak edib.

Qeyd edək ki, “Nar” Laçın şəhərində satış və xidmət mərkəzini təqdim edən ilk mobil operatordur.

“Nar” üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında infrastrukturumuzu genişləndirmək prioritet hədəfimizdir. Biz işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması istiqamətində həyata keçirilən önəmli layihələrə bundan sonra da öz dəstəyimizi göstərməyə davam edəcək, hər bir müştərimizin xidmətlərimizdən sərfəli qiymətə faydalanmasını təmin etmək üçün bütün mümkün səylərimizi səfərbər edəcəyik. Məhz bu yanaşma bizi sizə ən yaxın edir”, - deyə “Nar”ın baş icracı direktoru Qunnar Panke mükafatlandırma mərasimindəki çıxışında qeyd edib.

2024-cü ildə şəbəkə infrastrukturunu daha da gücləndirməyi hədəfləyən “Nar” Qarabağda baza stansiyalarının, satış və xidmət mağazalarının sayını artırılmasını bu il də davam etdirməyi nəzərdə tutur.

“Nar” hal-hazırda 2.2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə, ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq, sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# XANIMLARI ƏN ÇOX həyəcanlandıran hədiyyələr




8 Mart Beynəlxalq Qadınlar günündə kişiləri ən çox düşündürən sevdikləri, dəyər verdikləri xanımlara alacaqları hədiyyələrdir. Zövqlər də, istəklər də, imkanlar da fərqlidir. Bəzi xanımlar üçün xoş bir söz ən dəyərli hədiyyə sayılırsa, digərinin arzusu maddiyatdan yanadır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

8 Mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Bu bayramın da əsas xüsusiyyəti qadınların hansısa bir formada qiymətləndirilməsidir. Bu qiymətləndirmələrin ən populyarı qadınlar üçün hədiyyələrin alınmasıdır. Hələ qədim Romada evli qadınlar ərlərindən hədiyyələr alır, sevgi və diqqətlə əhatə olunurdular. Qullara da hədiyyələr təqdim olunur, evin sahibəsi dincəlmələrinə icazə verirdi. Ən yaxşı paltar geyinmiş, başlarında ətirli çələnglər olan romalı qadınlar ilahə Vestanın məbədinə gedirdilər. Bu ənənə hazırda da davam edir. Əksər azərbaycanlı kişilər də dəyər verdikləri xanımlara bayram günü müxtəlif hədiyyələr almağa çalışırlar. Amma təbii ki, zövqlər də, istəklər də, imkanlar da fərqlidir. Bəzi xanımlar üçün xoş bir söz ən dəyərli hədiyyə sayılırsa, digərlərinin arzusu fərqli olur. Biz də tanınmış xanımlarımızın hədiyyə istəklərini sorğuladıq. Soruşduq ki, bu gün onlara hansı hədiyyələr alınsa, daha xoşbəxt olarlar? Bu sualı öz sahəsində uğur əldə etmiş xanımlarımıza ünvanladıq.


Mehriban Zeynalova
Foto: Tapdıq Abdullayev/Global Media Group

## “ƏN BÖYÜK HƏDİYYƏM LAYİQ GÖRÜLDÜYÜM “TƏRƏQQİ” MEDALIDIR”

“Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalovanın sözlərinə görə, onun üçün ən böyük hədiyyə Prezidentin sərəncamı ilə layiq görüldüyü “Tərəqqi” medalı olub: “Doğmalarımdan hədiyyə alsam, sevinərəm. Mənim üçün önəmli olan diqqətdir. Sevdiklərimin ətrafıma toplaşmağı, birlikdə əylənməyimiz mənim üçün ən böyük dəstəkdir. Bir də ən böyük hədiyyə dəstək göstərdiyim qadınların mesajlarıdır”.

### BU İL ÜÇÜN ARZUSU BAĞ EVİ HƏDİYYƏ EDİLMƏSİDİR

Psixoloq Samirə Bağırova deyir ki, bu illər ərzində onu ən çox sevindirən hədiyyə bayram günü aldığı maşın olub. Bu il üçün isə arzusu bağ evi hədiyyə edilməsidir: ”Mənə görə, ən yaxın insan üçün hədiyyənin önəmi var. Çünki özüm də zövq oxşayan hədiyyə seçməyə çalışıram. Tanışlara, məsafəli insanlarla isə sözlə də diqqət ayırmaq kifayətdir”.


Samirə Bağırova

## SEVİNC CƏFƏRZADƏ HANSISA HƏDİYYƏ ALDIĞINI XATIRLAMIR

Futbol üzrə qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadə bildirir ki, 8 Martda hansısa hədiyyə aldığını xatırlamır. Çünki uzun illərdir xaricdə, sevdiklərindən uzaqda yaşayır: “Düşünürəm ki, bu il də hədiyyə ala bilməyəcəyəm. Əzizlərimin xoş sözü mənim üçün yetərli olar. Mənim üçün əsas diqqətdir. Hədiyyə də gözəldir. Amma istəmərəm ki, kimsə sonuncu pulunu verib hədiyyə alsın. Ona görə də təbrik etmək üçün bir neçə cümlə də kifayət edər”.

### “DÖRD MANATLIQ NƏRGİZ BUKETİ DƏ ƏN BÖYÜK HƏDİYYƏ OLA BİLƏR”

Aparıcı Jalə Həsənli isə kitab və şərf hədiyyələri almağı çox sevdiyini qeyd edir: “Bu il də belə hədiyyələr alınsa, sevinərəm. Hədiyyə əsas deyil, mənə görə əsas olan xatırlanmaqdır. Dörd manatlıq nərgiz buketi də mənim üçün ən böyük hədiyyə ola bilər”.

### HƏDİYYƏ ALMAĞI DEYİL, VERMƏYİ SEVƏN XANIMLAR DA VAR

Həkim pediatr Aytən İsmayılzadə 8 Martda hədiyyə verməyi daha çox xoşlayır: “Anamı, müəllimlərimi, yaşlı qadınları, ətrafımdakı xanımları sevindirirəm. Amma sevincimə səbəb olan xüsusi bir hədiyyə aldığımı xatırlamıram. Mənim üçün hədiyyənin fərqi yoxdur. Hədiyyə verəndə də, alanda da sevinirəm. Əsas diqqətdir. Arzulayardım ki, hədiyyələr dəyərli və lazımlı olsun. Məsələn, kiminsə anası həkimə getmirsə, ona həkim qəbulu, yoxlanış hədiyyə edə bilərlər”.



Əməkdar artist Elnarə Abdullayeva isə düşünür ki, insanın insana verdiyi hədiyyələrin əhəmiyyəti yoxdur: “Mənim üçün ən dəyərli olan Allahın verdiyi hədiyyələrdir. Hələ mənə özümdən daha dəyərli hədiyyə verən olmayıb”.

"İSVEÇRƏDƏ SƏHƏR SAAT 6-DA OYANIR, HƏM BİR YAŞLI UŞAĞA BAXIR, HƏM DƏ AİLƏM, ELMİ İŞİMLƏ MƏŞĞUL OLURDUM"

# “EVİMİN XANIMI, ÖVLADIMIN ANASI, İŞİMİN DƏ SAHİBİYƏM”



**Nərgiz Hacıyeva:** “Avropada müxtəlif konfransların, simpoziumların qalibiyəm, amma bir dəfə də öz cibimdən beş avro verib Litvadan Varşavaya getməmişəm. Hədəfim beynimin məhsulunu pula çevirmək idi. Bacardım da. Məqalələr, layihələr yazıb qrant udurdum, qarşı tərəf də biletimi alırdı. Biliyimi pula çevirib 48 Avropa şəhəri gəzmişəm”.

HAZIRLADI

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Müəllimləri onu “fakültənin qaymağı” adlandırıblar və uğurlu olacağına inanıblar. Çünki enerjisi, çevikliyi, diqqəti, bilikləri ilə daim seçilib. Haqlı da çıxıblar. O, bu gün Azərbaycanı xaricdə təmsil edən alimdir. Ona İsveçrədə “super elmi ana” deyirlər, hətta onunla bağlı məqalələr də yazırlar. Bir yaşlı qızı ilə tədqiqat aparır, universitetə gedir, konfranslara, “zoom” görüşlərinə qucağında uşaqla qatılır. Ailə və karyera balansının öhdəsindən layiqincə gəlir. Özünü evinin xanımı, övladının anası, işinin sahibi adlandırır.

Müsahibimiz İsveçrə Fəxri Federal təqaüdçüsü Nərgiz Hacıyevadır.

### 45 İSVEÇRƏLİ İÇİNDƏ YEGANƏ ƏCNƏBİ DİREKTOR

Gəncədə ziyalı ailəsində anadan olub. Cavad xan nəslinin davamçılarındandır. Orta məktəbi Gəncədə bitirdikdən sonra Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olur və qırmızı diplomla bitirir. Daha sonra Litva və Fransa dövlətlərinin ayırdığı təqaüd hesabına Vitautas Magnus Universitetinin və Sciences PO-nun beynəlxalq münasibətlər və diplomatiya ixtisasının magistratura səviyyəsini fərqlənmə diplomları ilə bitirir.

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) beynəlxalq əməkdaşlıq departamentinin mütəxəssisi, UNEC Beynəlxalq İqtisadiyyat məktəbində ingilis dilində sosiologiya və politologiya fənləri üzrə müəllim vəzifələrində çalışıb. Hazırda UNEC-də elmi fəaliyyətin təşkili şöbəsinin müdiri, Xanım Tədqiqatçılar Şurası tədqiqat mərkəzinin rəhbəridir. Nərgiz bununla kifayətlənmir. O, həm də İsveçrə Siyasi Elmlər Assosiasiyasının Empirik Metodlar işçi qrupunun direktoru vəzifəsini icra edir. 45 isveçrəli içində yeganə əcnəbi direktordur. İngilis, fransız, alman, rus, türk və Litva dillərini bilir.

Fotolar:
Rüfət Mikayılov/Global Media Group

### "ELMDƏ PAXILLIQ MÜTLƏQDİR"

● **Nərgiz xanım, peşənizin vurğunusunuz. Hər kəs ixtisas seçimi ilə bağlı qərarında sizin qədər şanslı olmur. Siz nə vaxt dərk etdiniz ki, siyasi alim, tədqiqatçı olmalısınız?**

● Uşaqlığımdan tarixi çox sevirdim. Bir dərsə 5-6 saat vaxt sərf edir, mətni dərk etdikdən sonra nöqtə, vergülünə qədər əzbərləyirdim. Hətta qəbul vaxtı tarixdən 25 sualı 1 dəqiqə 50 saniyəyə yazdım. Peşə sevgimi anam kəşf edib. O, bizə heç vaxt müdaxilə etməyib, sadəcə müşahidə edib və yönləndirib. Bacımla uşaq idik, bizə tarix kitabını verdi və dedi ki, öyrənin mənə danışın. Mən öyrəndiyimi çox detallı, maraqla danışdım. Bacım isə daha yığcam məlumat verdi. Anam bacıma dedi ki, sənin marağın texniki elmlərədir.

● **Universitetin ilk günü “buranı qırmızı diplomla bitirəcəyəm” demisiniz. Amma həvəsinizi qıranlar, buna inanmayanlar olub.**

● O qədər sevincli idim ki... İlk dərs günü saat 7-yə 15 dəqiqə qalmış qapıda idim. Məndən başqa heç kim yox idi. Mənə elə ilk gün dedilər ki, burada qırmızı diplom almaq mümkün deyil. Elə o yaşımda deyirdim ki, bu, sizin yanaşmanızdır. Mən öz bildiyimdən dönməyəcəm. Bizim cəmiyyətin ən ağrılı yerlərindən biri mənfi rəyin daha çox yayılması və ona inanılmasıdır. Qırmızı diplom alanları da sanki güzəşt ediblər kimi təsvir edirdilər. Tələbənin savadına, öz hesabına əldə edəcəklərinə inana bilmirdilər. İlk gündən ön partada oturdum, məktəbə beş yaşımda getdiyim üçün yaşıdlarımdan balaca idim. Mən həmişə savadlı, rəqabətli, şəffaf qısqanclığın tərəfdarıyam. Elmdə paxıllıq mütləqdir. Amma bu paxıllıq başqalarını toksik şəkildə zəhərləməməlidir. Mənə inanmayanlara inad, universiteti qırmızı diplomla bitirdim.

### "YATAQXANADA DEDİM Kİ, NƏRGİZ, SƏN BUNU BACARDIN..."

● **Litvada cəmi üç azərbaycanlıya verilən təqaüdü qazanmısınız. Bu, necə oldu?**

● Xaricdə təhsil üçün universitetlərə müraciət edirdim. Anam həmişə deyirdi ki, təhsilə pul xərcləmək olar, amma çalışmaq lazımdır ki, təhsil sənə pul gətirsin. Mən öz bacarığımı elmə çevirmək və ondan pul qazanmaq istəyirdim. Bu təqaüdü qazanmazdan əvvəl Gəncədə Heydər Əliyev mərkəzində ingilis dili qrupunun rəhbəri idim. 400-500 tələbəm var idi, onları təmənnasız hazırlaşdırırdım. Daha sonra bu fəaliyyətim dəyərləndirildi və qısa müddət icra hakimiyyətində işlədim. Burada vəzifəyə getmək imkanım yarandı, amma heç nə təhsilimin qarşısını ala bilməzdi. Litva Elm və Təhsil Nazirliyi tərəfindən verilən dövlət təqaüdünə layiq görüldüm. Bəli, bu təqaüd o zaman üç azərbaycanlıya verildi, biri də mən idim. Yataqxanada dedim ki, Nərgiz, sən bunu bacardın, sən artıq Avropada təqaüdlə təhsil alacaqsan. Yaxşı oxuduğuma görə bir semestrlik Paris Diplomatiya Akademiyasına göndərildim, daha sonra Avropa İttifaqının Erasmus təqaüdünü qazandım. Macarıstanda Soyuq Müharibə, Tarix və Hüquqi Araşdırmalar Mərkəzində tədqiqatçı kimi işlədim, bitirdikdən sonra yenə universitetə gəldim. Litvadan məzun olduqdan sonra Çexiya Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq Münasibətlər İnstitutunda yenə tədqiqatçı kimi fəaliyyət göstərdim.



*“İsveçrədə pandemiya rejimi idi, yoldaşımla qızımı apara bilmirdim. Qızımın ana südünə ehtiyacı var idi və mənimlə gəlməli idi. Professorum məktub yazdı və nəticədə qızım, yoldaşım və mən İsveçrəyə yollandıq. Həyat yoldaşım da mənə görə işindən çıxdı, maşınını satdı.”*

● **Azərbaycanı Argentinadan tutmuş Yaponiyaya qədər müxtəlif ölkələrdə təmsil etmisiniz. Sizin üçün ən yadda qalan hansı idi?**

● İsveçrədə Ermənistan Amerika Universiteti və Sürix Universitetinin birgə təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilirdi. O konfransda iştirak etmək üçün çox çalışdım. Məni qəbul etmələri üçün məqaləmin başlığını “Dəyişən qüvvələr balansı, status-kvo Qarabağ və Avropa İttifaqı nümunəsində” qoydum. Məqaləm qəbul olundu və İsveçrə Federal Departamenti bütün xərclərimi qarşıladı. Yoldaşım mənə dedi ki, orada təksən, çıxışdan sonra üstünə çox gələcəklər, problem olarsa, səni çöldə gözləyəcəm. Çıxışımdan sonra erməni professorları təkidlə yanaşmalarımın düzgün olmadığını deyirdilər. Mən isə onlara deyirdim ki, sizin yanaşmanızda müvafiq hüquqi təminat yoxdur, amma mən sizə faktlarla danışıram. Sizə öz dilimdən deyil, beynəlxalq konvensiyaların, deklarasiyaların, qətnamələrin dilindən danışıram. Azərbaycanı layiqincə təmsil etdiyim üçün xoşbəxt idim.

### "VAKANSİYANIN ERKƏYİ, DİŞİSİ OLUR?"

● **İqtisad Universitetinə maraqlı təsadüflə işə düzəlmisiniz. Nə üçün “vakansiyaya bəylər müraciət edə bilər” şərtini oxuduğunuz halda, inadla müraciət etdiniz?**

● Bəli, Beynəlxalq Əməkdaşlıq Departamentində beynəlxalq əlaqələr üzrə mütəxəssis vəzifəsinə vakansiya elan edilmişdi. “Ancaq bəylər müraciət edə bilər” sözü məni təəssüfləndirdi. Qəsdən bu vakansiyaya müraciət etdim. Məni bir ay sonra çağırdılar və bir xanım dedi ki, vakansiya bəylər üçündür, siz niyə müraciət etmisiniz? Dedim vakansiyanın da erkəyi, dişisi olur? Təsəvvür edin, müsahibəyə 20 bəy gəlmişdi, tək xanım mən idim. Mənə dedilər ki, bizi nə ilə təəccübləndirə bilərsən ki, səni işə götürək? Dedim ki, mən enerjiliyəm, motivasiya prinsiplərim var, ən əsası, ictimai rəyə görə ruhdan düşmürəm. Sonda rektorla görüşdüm və məni istisna hal kimi işə qəbul etdilər. Rektor Ədalət Verdiyevin təhsilimlə bağlı mənəvi dəstəyini daim hiss etdim. Onun mənəvi dəstəyi ilə İsveçrədə tədqiqat apardım.

● **Nə üçün məhz bəy işçi istəyirdilər?**

● Xarici qonaqları gec saatlarda qarşılamaq lazım idi. Dedim, mənim üçün problem deyil. Qadın da əgər işi üçün lazımdırsa, bunu edə bilər və etməlidir də.

### SÜRƏT VƏ SAVAD

● **İsveçrə fəxri federal təqaüdünü necə əldə etdiniz?**

● Pandemiya dövründə özümü ilk dəfə çox uğursuz hesab edirdim. Övladımla bağlı analıq məzuniyyətində idim, faydasız olduğumu düşünürdüm. Uğurumun iki səbəbi olub, sürət və savad. Federal təqaüdün elanı başlamışdı. Təkcə professor tapmaq üç ay vaxtımı aldı. Təqaüdə müraciət etmək üçün ilk addım o idi ki, öz tədqiqat proqramını professora göndərirsən, səni bəyənirsə, dəstək məktubu yazır. 45 professora tədqiqat proqramımı göndərdim. İki aylıq proseslərdən sonra Cənubi Qafqaz üzrə araşdırmaçı professor Dirk Lehmkuhl məni elmi rəhbərlik üçün qəbul etdi. Sevincimin həddi-hüdudu yox idi. O maili alanda qızımı ayağımla arabada yellədir, maillərimi oxuyurdum. Qızım yatmışdı, sevincimdən qışqırmaq istəyir, özümü sıxırdım. 450 səhifəlik sənədlərlə İsveçrə səfirliyinə yollandım. Doqquz aydan sonra cavab çıxdı. Məni fəxri federal təqaüdə layiq gördülər. Mövzum işğal dövründə Azərbaycanın işğal olunmuş ərazilərində idxal-ixracın iqtisadi hüquqi qiymətləndirilməsi idi. Qanunsuz patentlər, məskunlaşdırma, ticarət nişanları haqqında araşdırma aparmışdım.160-dan çox qanunsuz şirkəti tapmışdım. Tədqiqatlarımı İspaniya, Macarıstan, Yaponiya, İngiltərədə aparırdım. 15 şəxsdən 14 lehinə, 1 əleyhinə səslə bu təqaüdə qəbul olundum. İsveçrədə pandemiya rejimi idi, yoldaşımla qızımı apara bilmirdim. Qızımın ana südünə ehtiyacı var idi və mənimlə gəlməli idi. Professorum məktub yazdı və nəticədə qızım, yoldaşım və mən İsveçrəyə yollandıq. Həyat yoldaşım da mənə görə işindən çıxdı, maşınını satdı. Biz bir il bir ay İsveçrədə yaşadıq.



## "BİLİYİMİ PULA ÇEVİRİB 48 AVROPA ŞƏHƏRİ GƏZMİŞƏM"

● **Qadın istəsə, hər şeyə qadirdir deyə bilərikmi?**

● Bəli, qadın düzgün hədəflər qoyaraq hər şeyi bacarar. Hədəflərin olmalı, o hədəflərə çatmağa fokuslanmalısan. Mən Avropada müxtəlif konfransların, simpoziumların qalibiyəm, amma bir dəfə öz cibimdən beş avro verib Litvadan Varşavaya getməmişəm. Hədəfim beynimin məhsulunu pula çevirmək idi. Bacardım da. Məqalələr, layihələr yazıb, qrant udurdum, qarşı tərəf də biletimi alırdı. Biliyimi pula çevirib 48 Avropa şəhərini gəzmişəm.

● **Sizcə, xanımların karyera yüksəlişinin qarşısında dayanan ən böyük əngəl nədir?**

● Ailə həyatı qurduqdan sonra xanımların üzərinə böyük məsuliyyət düşür. Əslində, hər bir xanım elə insanla ailə qurmalıdır ki, onun həyatını dəyişməyə çalışmasın, əksinə, bir-birilərinə uğurlarında dəstək olsunlar. Yəni sənin həyat yoldaşın adından da göründüyü kimi həyat yolunda sənə yoldaşdır, yolunu kəsəcək fərd deyil. Mən ailə quranda anam yoldaşıma şərt qoymuşdu ki, qızım diplomat, səfir olsa, həyat yoldaşı ona mane olmamalıdır. Çox şükür ki, bu gün həyat yoldaşım mənə ən böyük dəstək verənlərdən biridir. Mən də görüşəndə bildirdim ki, sən sadəcə mənim yanımda gələcəksən, mənim həyatım köklü dəyişikliyə məruz qalmayacaq, bir-birimizə dəstək olacağıq və irəliyə gedəcəyik. İstədiyim kimi də oldu. Həyat yoldaşım mənimlə tanış olanda rus və türk dilini bilirdi, ingilis, alman, dillərini bir yerdə öyrəndik.



● **Bəzi insanlar düşünür ki, qadın ya karyerada uğurlu olmalıdır, ya da ailədə. Siz hər ikisini idarə etməyi bacarmısınız. Bunun sirri nədir?**

● Düzdür, bəzən balans pozulur, 40 faiz ailəyə, 60 faiz elmi tədqiqata gedir. Yaxud da əksinə olur. Mən İsveçrədə saat 6-da oyanır, həm bir yaşlı uşağa baxır, həm də ailəm, elmi işimlə məşğul olurdum. Hətta universitetdə mənim haqqımda məqalə də paylaşmışdılar. Mənə “super elmi ana” deyirdilər. Qızım ağlayırdı, məcbur olub özümlə universitetə aparırdım. Hətta professorum da mənə kömək edir, ona çay verirdi. “Zoom” görüşlərinə qucağımda uşaqla qoşulurdum. Elmi sferada övladım həyatıma rəng qatdı, mənə uğur gətirdi. Ailə və karyera balansımın öhdəsindən gəldim. Evimin xanımı, övladımın anası, işimin də sahibiyəm. Ailəmə və ölkəmə töhfə verməyə davam edəcəyəm.

# “GÜCLÜYƏM, AMMA ŞİDDƏTƏ MEYİLLİ DEYİLƏM”



Sevilə Muradova: “İnsan həyatda hər şeyi etməyə qadirdir. Heç bir qadın zəif deyil. Zəiflik, zəriflik onun həyat seçimidir, xüsusiyyəti deyil”.

**Fotolar:**
Rüfət Mikayılov/Global Media Group

SÖHBƏTLƏŞDİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Qadınlar özlərini sübut etmək üçün tez-tez “qadın zəif deyil, zərifdir” misalını çəkmək məcburiyyətində qalırlar. Çünki əksər insanlar, xüsusilə də qarşı cinsin nümayəndələri qadının zəif olduğunu əsas götürərək, üzərində hökmranlıq etməyə çalışırlar. Budəfəki müsahibimiz bu düşüncələri alt-üst edir. O, “qadın zəifdir”, “kişi qadından güclüdür” sözlərinə inad bütün kişilərə meydan oxuyub. Müsahibimiz vaxtilə Azərbaycanı yarışlarda təmsil edərək bayrağımızı dalğalandıran, sambo üzrə müxtəlif titullara sahib olan Sevilə Muradovadır.

### HƏYATDƏ DAVA EDƏRKƏN KƏŞF EDİLİB

Bakıda anadan olub. Atası gəmi kapitanı, anası evdar qadındır, üç bacının ortancılıdır. Deyir ki, uşaqlıqdan bütün idman növlərinə marağı olub: “Tennis, voleybol, gimnastika ilə məşğul olurdum. İdmanla tanışlığım beş yaşımdan başlayıb. 6-cı sinifdən peşəkar şəkildə cüdo ilə məşğul oldum. Ondan sonra idman mənim həyat tərzimə çevrildi”.

Sevilə xanım deyir ki, həyətdə uşaqlarla dava edərkən cüdo məşqçisi onu görüb və istedadını kəşf edib: “Çox dəcəl, davakar uşaq idim. Özümdən böyük yaşda olan oğlanlarla dalaşır və həmişə də qalib gəlirdim. Yadımdadır, bir dəfə atam mənə izah etdi ki, əgər sənə qarşı kimsə səhv hərəkət edirsə, şiddətə baş vurma, valideynlərinə şikayət et. Bir dəfə atamın dediyini etdim, uşağın anası mənə dedi ki, “oğlum nə edibsə, əcəb edib”. Mən də bundan sonra çarəm qalmadığını görüb dalaşdım. O vaxt həyətdən təsadüfən cüdo məşqçisi keçirmiş. Bu vaxt məni görüb, müşahidə edib. Çağırıb soruşdu ki, idmana gəlmək, peşəkar şəkildə məşğul olmaq istəyirəm? Düşünmədən “hə” dedim və peşəkar idman həyatım başladı”.

### "O QƏDƏR ZƏİF KİŞİLƏR VAR Kİ..."

Sevilə xanım demokratik ailədə böyüdüyü üçün özünü xoşbəxt hiss edir. Deyir ki, ailəsi ona heç vaxt “sən qızsan, qız kimi hərəkət et” sözünü deməyib, onun karyerasına mane olmayıb: “Qadının qarşısına qadın olduğu üçün baryerlərin qoyulması acınacaqlıdır”.

Həmsöhbətimiz cinsiyyətin görülən işlərlə əlaqəsi olmadığını düşünür. Deyir ki, zəif qadın olduğu kimi, zəif kişilər də var: “Hər bir insan zəif də ola bilər, güclü də. O qədər zəif kişilər var ki... Məsələn, kişilər mənimlə yarışmağa çəkiniblər. Ona görə də “kişidirsə güclüdür, qadındırsa zəif” fikirlərini qəbul etmirəm. O qədər qorxaq kişilər görmüşəm ki... Bu, niyə ancaq qadına aid edilir?”

### “AZƏRBAYCAN ÇEMPİONATLARINDA 17 BİRİNCİLİYİM VAR”

Sevilə xanımın ən böyük pərəstişkarları da ata-anası olub. Məhz bu motivasiya ilə yarışlarda dərəcələr əldə edib, Avropa, dünya çempionluğunu qazanıb: “İdmanda ilk uğurum uşaqlar arasında keçirilən yarışda Bakı üzrə üçüncü yeri tutmaq idi. 11 yaşım vardı. Uduzmağı sevmirdim və bu hiss məni daha da gücləndirirdi. Ondan sonra Bakı birincisi, Azərbaycan birincisi oldum. Cüdo və sambo ilə məşğul olurdum. Azərbaycan çempionatlarında 17 birinciliyim var. Daha sonra sambo üzrə həm dünya çempionu, həm də Avropa çempionu oldum. Müəyyən dövrdən sonra zədələr səbəbindən karyeramı sonlandırmaq məcburiyyətində qaldım”.

### “HEÇ KİM MƏNİM HƏYATIMI YAŞAYA BİLMƏZ”

Sevilə xanım deyir ki, karyerası ilə bağlı ətrafın fikirləri ona heç vaxt maraqlı olmayıb.

> “Kişilər mənimlə yarışmağa çəkiniblər. Ona görə də “kişidirsə güclüdür, qadındırsa zəif” fikirlərini qəbul etmirəm.”

Düşünür ki, ona həyat bir dəfə verilib, onu istədiyi kimi yaşaya bilər: “Heç kimi qınamıram, yaxud seçdiyi yola təəccüblənmirəm. Mənə həyat bir dəfə verilib və bunu yaşayacağam. Heç kim mənim həyatımı yaşaya bilməz”.

### “ÖZÜNƏ HÖRMƏT EDƏN İDMANÇI ZƏİFİ ƏZMƏZ”

Güc deyəndə bir çox insan vurmaq, döymək, şiddət başa düşür. Hətta bəzi insanlar idmançı dostları ilə qürrələnirlər. Müsahibimiz deyir ki, zəifə güc tətbiq etmək, şiddət göstərmək onun ailəsində qadağan olunan və heç vaxt rastlaşmadığı hərəkət olub: “Atamın da idmanda dərəcələri var idi. Amma ailəmizdə heç vaxt əl qaldırmaq, uşaq döymək, yaxud kişinin öz gücünü qadının üzərində tətbiq etməsi olmayıb. Biz ümumiyyətlə, bunların nə demək olduğunu bilməmişik. Mən güclüyəm, amma şiddətə meyilli deyiləm. Sən güclüsən deyə, bu haqqı sənə heç kim verməyib ki, zəifə şiddət göstərəsən. Danışaraq çözülə bilməyən heç nə yoxdur. Özünə hörmət edən idmançı özündən zəifi əzməyə çalışmaz”.





### "AİLƏ DEYİB Kİ, SƏN ƏRƏ GETMƏLİSƏN..."

Seviləni heyfisləndirən ən böyük nüans isə vaxtilə idmanda kifayət qədər uğurlar qazana biləcək olan qadınların ailələri tərəfindən əngəllənməsi olub: “Mən də qadınların karyeralarının ailələri tərəfindən əngəllənməsinin şahidi olmuşam. Qadınlar var idi ki, bununla mübarizə aparırdı, amma “ailəmin üzünə qayıda bilmərəm”, - deyib taleyi ilə barışanlar da az olmayıb. O qədər qızlar var ki, bu gün ən uğurlu xanımlardan ola bilərdilər. Amma ailə deyib ki, sən ərə getməlisən. 18 yaşında məcbur ərə verilən qızlar görmüşəm və çox təəssüflənmişəm. Təsəvvür edirsiniz, insan karyerasının zirvəsində məcbur ərə verilib”.

Seviləni qadınlarla bağlı ən çox narahat edən məsələ isə güclü qadının “kişi kimi qadın” deyə təqdim edilməsidir: “Mən güclüyəm, amma kişi kimi olmağıma ehtiyac yoxdur, qadın kimi güclüyəm”.

### "QADININ DAXİLİNDƏKİ GÜC KİŞİLƏRDƏKİNDƏN DƏ ÇOXDUR"

Sevilə xanım həm də 8 Mart Beynəlxalq Qadınlar Günündə dünyaya gəlib. Məhz bu gün öz həmcinslərinə səslənir, deyir ki, qadının daxilindəki güc kişilərdəkindən də çoxdur: “Qadınlara demək istəyirəm ki, güclü olsunlar. Fiziki güclü olmasalar belə, mənəvi güclü olsunlar. O güc hər bir qadının içində var və kişilərdəkindən də çoxdur. Heç bir qadın zəif deyil. Zəiflik, zəriflik onun həyat seçimidir, xüsusiyyəti deyil”.





KİÇİK TORPAQ SAHƏSİNDƏ İÇ-İÇƏ BİR NEÇƏ KEYFİYYƏTSİZ EV İNŞA EDİRLƏR

# “MAKLER EVLƏRİ” İLƏ BAĞLI NARAZILIQLAR ARTIR

**Sənədsiz evlərin sayğaclaşdırılması ilə bağlı yeni qaydalar qüvvəyə minib. Bu qaydalara görə, sənədsiz evlərdə kommunal xidmətlərlə bağlı sayğac quraşdırılması mümkün olmayacaq. Bəs bu qaydalar “makler evləri” biznesinə hansısa formada təsir edibmi?**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yəqin ki, elan saytlarında “makler evi deyil” tipli yazıları çoxumuz görmüşük. Sosial şəbəkələrdə də bu evlərlə bağlı xeyli şikayətlər mövcuddur. İnsanlar bu cür evləri alıb aldadıldıqlarını qeyd edirlər. Həmçinin bu evlər adətən sənədsiz olur. Artıq sənədsiz evlərlə bağlı da yeni qaydalar tətbiq edilir. Bu qaydalara görə, sənədsiz evlərdə kommunal xidmətlərlə bağlı sayğac quraşdırılması mümkün olmayacaq. Məlum qaydalar “makler evləri” biznesinə hansısa formada təsir edibmi?

### “BU QƏRAR İKİ AYA YAXINDIR Kİ, VERİLİB”

Əmlak məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, “makler evləri” ilə bağlı şikayətlər hər il artır: “Bu evləri alan vətəndaşlar müxtəlif problemlərlə üzləşirlər. Şəhərdən kənar ərazilərdə bu prosesə effektli nəzarət mümkün deyil. Sayğaclaşma ilə bağlı qadağaların nə dərəcədə effektli olacağını isə zaman göstərəcək. Bu qərar iki aya yaxındır ki, verilib. Sənədsiz evlərlə bağlı yeni qaydaların əhatə dairəsi genişləndikcə, bundan agah olan şəxslər daha çox sənədli evlərə üstünlük verəcəklər”.

E.Azadovun fikrincə, “makler evləri” ilə bağlı problemlərin yaranmasının digər səbəbi daşınmaz əmlakın həddindən artıq bahalaşmasıdır: “Vətəndaşların gəlir səviyyəsi bu artıma uyğun deyil. İş adamları daşınmaz əmlak alıb bizneslərini inkişaf etdirə bilmirlər. Daşınmaz əmlakın bahalaşması bu cür işbazların əl-qolunu açır, daha çox qazanmalarına şərait yaradır”.

## PROBLEM SON BEŞ İLDƏ DAHA DA BÖYÜYÜB

Əmlakçı Mülkədar Rüstəmov bildirdi ki, bu problem son beş ildə daha da böyüyüb. İşbazlar bu işdə qazanc olduğunu görərək, ucuz qiymətə torpaq alırlar: “Kiçik həcmli torpaqda faktiki olaraq iç-içə bir neçə keyfiyyətsiz ev inşa edirlər. Həmin evlərin problemi ən çox payız aylarında üzə çıxır. Xüsusilə Masazır, Ramana, Sabunçu, Xırdalan, Binə, Məhəmmədi, Zabrat kimi kənar ərazilərdə boş torpaqlar var. Bu torpaqlarda tikilən evlər payız aylarında nəm çəkir, sonra isə çat verirlər. Aztəminatlı gənc ailələr əziyyətlə yığdıqları pulla bu evləri ucuz qiymətə alsalar da, sonra peşman olurlar. Bəzən bu evləri bir neçə şəxsə satırlar. Hələ də məhkəmələrdə belə çəkişmələrin şahidi oluruq”.



**EV ALMAQ İSTƏYİRSİNİZSƏ, MÜTLƏQ ÇIXARIŞI OLANINI SEÇİN.**

### BU EVLƏRƏ ÇIXARIŞ VERİLMİR

M.Rüstəmovun sözlərinə görə, bu evlərin əksəriyyəti kənd təsərrüfatı, sənaye məqsədli torpaqlarda inşa edilir ki, nəticədə həmin evlərə müvafiq qurumlar tərəfindən çıxarış verilmir: “Bakı ətrafındakı qəsəbələrdə bu cür evlərin sayı gündən-günə artır”.



Elnur Azadov

Əmlakçı bildirir ki, “makler evləri”nin bünövrəsində də problemlər olur. Qanunla bünövrə qazılıb kəmər atılmalıdır. Tikinti qaydalarına əməl edilməlidir ki, tikilən ev daha təminatlı olsun: “Makler evləri” isə tək daşla tikilir. Torpağın zamanla yatması nəticəsində evlərdə çatlar yaranır. Kommunal xətlər də quraşdırılarkən ucuz avadanlıqlardan istifadə edirlər. Elektrik kabelləri gərginliyə tab gətirmir. Su boruları, kanalizasiya xətlərində problemlər yaşanır”.

Əmlakçının sözlərinə görə, yeni qaydalar qüvvəyə mindikdən sonra bəzi dələduzlar sayğac quraşdıracaqlarını söz verərək insanları aldadırlar: “Lakin insanlar belə vədlərə inanmasınlar. Məlum qərar bu evlərə olan tələbatın azalmasına qismən də olsa təsir edə bilər. Amma burada əsas iş icra hakimiyyətləri, xüsusilə bələdiyyələrin üzərinə düşür. Onlar həmin ərazilərə nəzarət etməli, tikintilərə icazə verməməlidirlər”.

### UCUZ QİYMƏTƏ ALDANMAYIN

M.Rüstəmovun insanlara məsləhəti odur ki, ucuz qiymətə aldanaraq “makler evləri” almasınlar: “Torpaq sahəsi alaraq evi özünüz tikin. Ev almaq istəyirsinizsə, mütləq çıxarışı olanını seçin. Çıxarışın təyinatına baxmaq lazımdır ki, torpaq hansı məqsədlər üçün nəzərdə tutulur. Torpaq aldıqda da çıxarışlı alın. Sənəddə aldığınız torpağın yaşayış və ya xüsusi mülkiyyət məqsədli olduğu qeyd edilməlidir. Tikəcəyiniz evin eskizini hazırlayaraq müvafiq quruma göndərin. Proses bir qədər uzun çəksə də, işiniz daha keyfiyyətli və təminatlı alınacaq”.



Mülkədar Rüstəmov

## “MAKLER DƏ QAZANC GÖTÜRMƏLİDİR, YA YOX?”

Makler Cavid Səmədov isə bildirdi ki, onlar heç vaxt bahalı məhsul almırlar. Çünki qazanc da götürməlidirlər: “Makler aldığı evi təmir etdirərkən divar kağızını 50 manata yox, 25 manata alır. Amma şəxsi tikintidə evin sahibi belə şeylərə diqqət edir. Bu o demək deyil ki, makler təmir edirsə, keyfiyyət aşağıdır. Təmir normal olur, sadəcə bahalı məhsullar istifadə edilmir. Makler həmin evdən pul da qazanmalıdır. Təbii ki, şəxsi tikili olanda daha keyfiyyətli ev ortaya çıxır”.

C.Səmədovun sözlərinə görə, bu vaxta qədər tikdikləri evlərə sayğac quraşdırarkən problem yaşamayıblar: “Maklerlər sənədsiz ev almamağa çalışırlar. Bələdiyyənin sənədi ilə torpaq alırlar. Adi insanlar da belə torpaqlar əldə edərək evlərini özləri tikib yaşayırlar. Heç bir problem olmur, bütün sayğaclar da quraşdırılır. Makler evə sənəd almır, amma torpağın sənədi olur. Evə sənəd alıb-almamaq insanın öz seçiminə qalır. Onsuz da bu evləri alan insanlar bahalı ev almaq imkanında olmayanlardır. Bu səbəbdən maklerlər də evləri az xərclə tikirlər ki, insanlar onu almaq imkanında olsunlar”.

SMARTFONLARIN DAHA DA “AĞILLANMASININ” VƏ NOTBUKLARIN YARATDIĞI TƏNƏZZÜL

# PLANŞETLƏR DÖVRİYYƏDƏN ÇIXIR?

Dünyada planşetlərə olan tələbat azalır. Mütəxəssislər bildirirlər ki, son üç ildə bu tendensiya açıq şəkildə müşahidə edilir. Səbəb isə texnoloji baxımdan ağıllı telefonlar və notbuklarla müqayisədə planşetlərin bir qədər geri qalmasıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Planşetlər bir zamanların ən çox axtarılan, əldə edilməsinə çalışılan, insanların ciddi şəkildə əlindən tutan texnoloji yenilik idi. 8-9 il öncəsinə qədər hamı planşet almağa maraq göstərirdi. Elə ən bahalı, maraqlı hədiyyələr də planşetlər hesab olunurdu. Hətta texnologiya blogerləri planşetlərin notbuk erasını bitirəcəyini də proqnozlaşdırırdılar. Amma vəziyyət dəyişib. Artıq bazarda da planşet markalarına az rast gəlinir. Alınan planşetlərdə isə əsasən uşaqlar oyun oynayırlar.

Açıqlanan statistika da bunu göstərir. Belə ki, 2023-cü il ərzində dünya üzrə planşet satışı 135 milyon 254 min ədəd təşkil edib. “Canalys” agentliyinin hesabatına əsasən, bu, bir il əvvəlki göstərici ilə müqayisədə 10,3 % azalma deməkdir. İkinci əsas məqam isə odur ki, müasir dövrdə ağıllı telefonların inkişafı və məşhurlaşmasından sonra 2019-cu ildə “Google” planşet bazarındakı satış və marağın az olması səbəbi ilə planşet istehsalını dayandırmışdı.

## DOYMUŞ BAZAR SİNDROMU

Yeni texnologiyalar, telekommunikasiya və innovasiyalar üzrə ekspert Cəlil Xəlilov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, smartfonların daha “ağıllandığı” və notbukların getdikcə daha çox istifadə olunduğu vaxtda planşetlər tənəzzül dövrünü yaşayır. Mütəxəssis vurğulayır ki, qlobal planşet satışları dinamikası son üç il ərzində aşağıya doğru gedir: “Bu enişin səbəbinə gəldikdə isə, ilk nüans doymuş bazar sindromudur. Yəni satışlarda enişi şərtləndirən faktorlardan biri bazarın doymasıdır. Texnoloji qurğularla zəngin bir dünyada istehlakçıların seçim imkanları böyükdür. Planşetlər smartfonlar və notbuklar arasında mükəmməl inqilabi cazibəsi olduğu vaxtlarda bazarı bəzəyirdilər. Bazar oxşar funksiyalarla təchiz edən cihazlarla dolu olduğundan bu cazibə bir müddət sonra zəiflədi. Bazar iqtisadiyyatı burada özünü tam gücü ilə doğrultdu”.






Bir il əvvəlki göstərici ilə müqayisədə
**10,3 % AZALMA**

## ÜMİD HƏLƏ DƏ VAR?

C.Xəlilovun sözlərinə görə, ümumi azalmaya baxmayaraq, planşet bazarının müəyyən seqmentləri inkişaf etməkdə davam edir. Yəni ümid hələ də var: “Planşetlərin daşınma qabiliyyətini və çoxyönümlülüyünü dərk edən təhsil müəssisələri onların istifadəsində inadkarlıq nümayiş etdirirlər. Bundan əlavə, istehsalçılar da fəal şəkildə yeniliklər edir, bazarlara uyğun yeni funksiyalar təqdim edirlər. Planşet bazarının gələcəyi ilə bağlı işartılar hələ də var. Peşəkar mövqe, mövcud ekosistemlərə inteqrasiya və ya inqilabi dizaynlar vasitəsilə planşetləri yenidən canlandırmaq bəlkə də mümkündür. İnnovasiyaları qəbul etmək, istehlakçı ehtiyaclarını anlamaq və daim inkişaf edən texnoloji mənzərədə fərqli dəyər təklifi hazırlamaq bu texnologiyanı böhrandan çıxara bilər”. Mütəxəssis sonda vurğuladı ki, qlobal planşet satışlarının azalması sadəcə statistik göstərici deyil, dəyişən istehlakçı davranışlarının, bazar dinamikasının və texnoloji irəliləyişlərin nəticəsidir.

## “KÖHNƏ GETDİ, SƏN TƏZƏDƏN DANIŞ”

Mütəxəssis deyir ki, ikinci faktor istehlakçının seçimlərini dəyişməsidir: “Necə deyərlər, “köhnə getdi, sən təzədən danış”. İstehlakçı seçimləri dinamikdir, dəyişən həyat tərzinə və texnoloji irəliləyişlərə uyğunlaşmaq üçün daim inkişaf edir. Daha böyük ekranları və təkmilləşdirilmiş imkanları ilə cəlb edən smartfonlar və misilsiz məhsuldarlıq təklif edən notbuklar fonunda planşetlər kimi arada qalan texnologiyaya ehtiyacın olub-olmaması getdikcə daha çox sual edilir. Hər ikisində ən yaxşısına sahib ola biləcəyimiz halda niyə onların ortasını seçməliyik?”.



Cəlil Xəlilov

## İŞ ÜÇÜN NOTBUK, ÜNSİYYƏT ÜÇÜN İSƏ SMARTFON

Mütəxəssis pandemiyadan sonra planşet bazarında enişin daha çox hiss olunduğunu vurğulayır: “COVID-19 pandemiyası məsafəli iş və virtual ünsiyyət üçün katalizator rolunu oynadı. Bu zaman da işimizi rahatlaşdıran cihazlara tələbat artdı. Planşetlər də məsafəli iş və virtual görüşlər üçün əlverişli texnologiya kimi özünü bu dövrdə doğrultdu. Dünya tədricən normala doğru irəlilədikcə isə, bu maraq azalmağa başladı. İnsanların işlərinə geri dönməsi, virtual görüşlərdən kənarlaşması planşetlərə olan ehtiyac azaltdı. Yenidən hamı iş üçün notbuklara, ünsiyyət üçün isə smartfonlara qayıtdı”.

## “İNSANLAR EHTİYACLARI DƏBDƏBƏDƏN ÜSTÜN TUTURLAR”

Həmsöhbətimiz deyir ki, planşet bazarına təsir edən dördüncü əsas faktor iqtisadi təsirlərdir: “İqtisadi aspekti də nəzərdən qaçırmaq olmaz. Son bir neçə ildə dünyada insanların iqtisadi vəziyyətləri qeyri-müəyyəndir. İqtisadi tənəzzüllər istehlakçıların xərcləmə vərdişlərinə də təsir edib. Belə vaxtlarda planşetlər kimi vacib olmayan alətlər arxa plana keçir. Çünki insanlar hazırkı dövrdə ehtiyacları dəbdəbədən üstün tuturlar”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 555
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# LİMONUN DA TƏBLİĞATA EHTİYACI VAR

“Bu gün İtaliyanın limon yetişdirilən bölgəsinə dünyanın hər yerindən turistlər gedir. Bizdə də bu məhsul var, ancaq təəssüf ki, düzgün təbliğ edə bilmirik. Bu, hansısa xırda şirkətlərin görə biləcəyi iş deyil”.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İtaliyanın cənubuna - Kampaniya bölgəsinə səyahət edən hər hansı bir turistdən “Oraların simvolu nədir?” soruşsan düşünmədən “limon!” - deyə cavab verəcək. Limonun vətəni Hindistan yarımadası olsa da, bu bitki məhz oradan bütün planetə yayılsa da, İtaliyanın cənubunun subtropik iqlimi bu məhsulun şöhrətini dünyaya daha çox yayıb. Neapol, Salerno, Sorrento, Pozitano, Amalfi, Kapri adası kimi turistik məkanlar “limon birinci bizdə yetişib” deyə, məhsulun ətri, dadı, rəngi, ölçüsü, bol çeşidləri uğrunda qızğın rəqabət aparırlar.

Bölgədə keçirilən limon festivallarına dünyanın hər yerindən turistlər gəlir. Küçə ticarətində, irili-xırdalı marketlərdə, bazarlarda, suvenir dükanlarında limondan hazırlanan limonad, kokteyl, zənginləşdirilmiş likör, salatlar, isti və soyuq yeməklər, desertlər, bəzək, ev və geyim əşyaları və s. baha qiymətə satılır. Təkcə “Limoncello” içkisini almaq üçün turistlər 28-45 avro arası pul ödəyirlər. Bölgə limondan və digər sitrus bitkilərindən hazırlanan məhsulları xarici ölkələrə ixrac edir. İtaliyanın cənubunda qapısında limon ağacı olmayan italyan tapmaq çətindir.

**LƏNKƏRAN LİMONUNUN ŞƏNİNƏ MAHNILAR, ŞEİRLƏR YAZILSA DA...**

Bizim ölkəmizdə də cənub zonası ta qədim vaxtlardan subtropik iqliminə görə sitrus meyvələrinin vətəni sayılır. Ordubad şəhəri də limonunun fərqli ətri ilə bu siyahıda yer alıb.

Məlumatlara görə, son 10 il ərzində ölkəmizdə sitrus bitkilərinin əkin sahələri çoxaldılıb. Təkcə cənubda bu, 3 min hektar sahəni əhatə edir.

Təəssüf ki, bu bölgələrdə yetişdirilən limonun şöhrəti, məhsulun ətri və dadı ilə qətiyyən müqayisəyə gəlmir. Baxmayaraq ki, Lənkəran limonunun şəninə mahnılar, şeirlər yazılıb, ancaq bu məşhurluq yalnız Rusiya bazarlarına qədər gedib çıxa bilib...

**FERMERLƏRİN ƏLİNDƏ QALAN MƏHSUL**

Fermerlər də bu fikri təsdiqləyirlər. Lənkəranlı fermer Hubeydə Abıyeva limonumuzla maraqlananların az olduğunu deyir: “Limon yalnız çay və bəzi yemək süfrələrində işlənir. Limonun sağlamlıq üçün böyük əhəmiyyəti var. Bu baxımdan əczaçılıq sənayesində geniş istifadə oluna bilər. Kulinariyada limon tərkibli çox məhsullar hazırlamaq olar. Heyif ki, min bir əziyyətlə yetişdirdiyimiz məhsulun çeşidli istifadəsi yoxdur”. Fermer məhsulu sata bilmədiklərindən də şikayətlənir: “Məhsulun satışı üçün bazar olmalıdır. Gərək istehsal müəssisələri olsun ki, məhsulu bizdən alıb istifadə etsinlər. Əziyyətlə yetişdiririk, amma sata bilmirik, əlimizdə qalır...”

**LİMONDAN ŞİRƏ, ŞƏRBƏT, MÜRƏBBƏ HAZIRLAMAQ OLAR**

Tovuzda yaşayan fermer Sahib Qasımov öz təsərrüfatını yaradaraq iki sort limon yetişdirir: “Əslində, Tovuz torpağı subtropik olmadığından limon yetişdirilməsi üçün münbit sayılmır. Amma çətinliklə də olsa təxminən 3-5 min limon yetişən istixana yaratmışam. Təsərrüfatı böyütmək üçün vəsait, qışda şaxtadan qorumaq üçün şərait lazımdır. Yetişdirdiyim məhsulu yalnız marketlər və toy şənlikləri üçün alırlar. Bizdə limon 5-10 qəpiyə satılır. Amma bu məhsulu daha dəyərli etmək, geniş məqsədlərlə istifadəsinə şərait yaratmaq olar”. Fermer hesab edir ki, məhsuldan həmçinin şirə, şərbət, mürəbbə və s. məhsullar hazırlamaq olar: “Bu məhsullar xaricdən gətirilib marketlərdə satılır. Başqa ölkələrdə limonçuluq daha gəlirli sahəyə çevrilib. Biz isə məhsuldan lazımınca istifadə edə bilmirik”.



## PROBLEMLƏRDƏN BİRİ DƏ MÜTƏXƏSSİS ÇATIŞMAZLIĞIDIR




Araşdırmamız zamanı öyrəndik ki, sitrus meyvələrinin yetişdirilməsi sahəsində mövcud problemlərdən biri də mütəxəssis çatışmazlığıdır. Aqrar elmləri üzrə fəlsəfə doktoru Xalıqverdi Babayev bildirir ki, fermerlərin əksəriyyəti indi qeyri-ixtisas sahibləri, tarix, ədəbiyyat və ya digər fənn müəllimləridir: “Əvvəllər Lənkəranda Subtropik Texnikumda kadrlar yetişdirilirdi, indi onun da fəaliyyəti dayanıb”. Mütəxəssis ümumiyyətlə limonun təbliğinin olmadığını bildirir: “Bizim regionda limonun şöhrəti ona görə artmır ki, emal texnologiyası, yeni innovativ texnologiyalar, aqrar sənaye kompleksi yoxdur. Əvvəllər fəaliyyət göstərən müəssisələrdə sitrus bitkilərindən müxtəlif məhsullar hazırlanırdı. İndi bu cür müəssisələr də yoxdur”. Alimin sözlərinə görə, son illər Azərbaycana Türkiyədən limon tingləri gətirilir. Amma onların bizim şəraitə uyğunlaşması çətindir.

**DÜZGÜN MARKETİNQ STRATEGİYASI OLARSA...**

Turizmçi Əfsun Əhmədovun sözlərinə görə, Azərbaycanın coğrafi iqlimi, landşaftı nəinki sitrus bitkilərinin, bütün meyvə və tərəvəzlərin yetişdirilməsinə imkan verir: ”Narla bağlı Göyçayda, sitrus bitkiləri ilə bağlı Lənkəranda bayramlar keçirilir, amma bunlar lokal xarakter daşıyır. Yəni yalnız özümüz üçün keçirilir”. Ə.Əhmədov turizm şirkətlərinin turistlərə yeni paketlər təqdim etməyə çalışdığını desə də, bu istiqamətdə strategiyanın düzgün qurulmadığını bildirir: “Bu işin daha düzgün marketinq strategiyası olsa, biz turizmçilər də onu inkişaf etdirə bilərik. Bu gün İtaliyanın limon yetişdirilən bölgəsinə dünyanın hər yerindən turistlər gedir. Bizdə də bu məhsullar var, ancaq təəssüf ki, düzgün təbliğ edə bilmirik. Bu, hansısa xırda şirkətlərin görə biləcəyi iş deyil”. Turizmçi hesab edir ki, ümumiyyətlə, hər bölgənin özünəməxsus məhsullarının təbliğinə ehtiyac var: “Fikrimcə, artıq turist cəlbində də standartlıqdan çıxmalıyıq. Turisti ənənəvi paketlərdən kənara çıxarmalıyıq. Belə yanaşma olsa, həmin bölgələrin turizmi də inkişaf edər. Bu strategiya işləsə, Azərbaycanın elə bir bölgəsi olmaz ki, orada inkişaf olmasın”.

# ƏLLƏRDƏN BAŞLAYAN GÖZƏLLİK



Dırnağın üstünə “dırnaq” qoyan zaman istifadə olunan maddələrdən dəridə allergik reaksiya yaranma ehtimalı var. Nəticədə bu, allergik dermatit və ekzema xəstəliyi yarada bilər.



XANIM AYDIN

Belə bir fikir var ki, qadının gözəlliyi əllərindən başlayır. Uzun və baxımlı dırnaqlar qadına xüsusi gözəllik verir. Günümüzdə işgüzar xanımların ağır iş rejimi dırnaqlarına qulluq etmək üçün vaxt da saxlamır. Bu mənada son illərdə xüsusən dəbə düşən manikür xidməti xanımların dadına çatır. Bəzən çox gözəl bəzəkli - dizaynlı dırnaqları görürük ki, sanki onun bir sənət əsəri olduğu, üstündə rəssamın işlədiyi gəlir ağlımıza. Bəs belə gözəl dırnaqlara sahib olmaq xanımlara neçəyə başa gəlir?

Manikür xidmətinə aid olan dırnaq qaynağı ilə bağlı fikirlər birmənalı deyil. Kimi deyir ki, əladır, rahatdır, gözəldir. Kimi də deyir ki, “olmaz, orqanizmə ziyandır”. Hətta bunun müəyyən xəstəliklər törətdiyini israrla deyənlər də var. Bu səbəbdən, sterillik çox önəmlidir.

### SERTİFİKATI OLMAYAN “USTALAR” ÇOXDUR

Manikür tədrisi üzrə təlimçi və texnoloq İlkanə Həsənova deyir ki, hazırda salonlarda sertifikatı olmayan “ustalar” çoxdur: “Dırnağını gözəlləşdirmək istəyən xanım öncə xidmətindən istifadə edəcəyi salonu araşdırmalıdır. Bilməlidir ki, dırnaq ustasının bu iş üçün sertifikatı var, yoxsa yox. Bunun üçün salon rəhbərliyi məsuliyyət daşıyır. Onlar sertifikatı olmayan dırnaq ustasını işə götürməməlidirlər. Müştəri ustanın iş təcrübəsi ilə də maraqlanmalıdır. İki ildən az təcrübəsi olan ustanın yanına getmək məsləhət deyil. Bundan başqa, xanımlar ustanın istifadə etdiyi məmulatları da bilməli və mütləq araşdırmalıdırlar. Steril olmayan alət və məhsullarla işləyən “usta” müştəriyə infeksiya sala və xəstəlik yoluxdura bilər. Ona görə də salon və usta seçəndə xanımlarımız çox diqqətli olmalı, bu işə ciddi yanaşmalıdır. Usta müştərinin dırnağını həm gözəl düzəltməli, həm də onu narahat edən suallara düzgün cavab verə bilməlidir”.



İlkanə Həsənova

### KİMLƏR DAHA DİQQƏTLİ OLMALIDIRLAR?

“Şellak, gellak və s. dırnağın özünə çox yaxşı təsir edir”, - deyir təlimçi: “Çünki dırnaq özü heç nəsiz olanda sanki müdafiəsiz qalır. Ona görə də bu, əslində həm dırnaqların gözəlliyi, həm də sağlamlığı üçün yaradılıb. Dırnaq qatı hər kəsdə müxtəlifdir. İş düzgün aparılsa, əslində dırnağı qoruyur. Necə ki, geyim insan bədənini istidən, soyuqdan qoruyur, o cür də bu”.

İlkanə xanım dırnaq qaynağının ziyanından da danışdı: “Müəyyən xəstəliklər var ki, onların daşıyıcılarına bunu etmək olmaz. Məsələn, şəkərli diabet xəstələrini götürək. Onlara çox incə manikür etmək, qanatmamaq lazımdır. Çünki risk qrupuna daxildirlər. Bundan başqa, onların dırnağında qaynaq haradasa bir həftə, on gün qalır”.



## MƏSLƏHƏTLİ DON GEN OLAR

Xanımlar arasında salon seçimi, adətən, məsləhətlə olur. Yəni bəyəndikləri ustanı bir-birilərinə tövsiyə edirlər. “Bəzən müştəri narazılıq edir ki, dırnağım tez qopdu. Bunun günahı tək ustada deyil. Elə xanımlar var ki, dinc durmur, dırnağını “pilkalayır”, dartışdırır. Estetik tərəfdən yanaşsaq, dırnaq baxımı xanımların dırnaqlarının gözəl görünməsini təmin edir. Xanımlar əvvəlki zamanlardakı kimi dırnaq manikürünə, boyanmasına çox zaman və əmək sərf etməli olmurlar”, - deyə təlimçi bildirir.

## HƏKİM MƏSLƏHƏTİ

Dermatoloq Kamil Qurbanov isə deyir ki, dırnaq qaynağı prosesi kimyəvi müdaxilədir: “Dırnağın üstünə “dırnaq” qoyan zaman istifadə olunan maddələrdən dəridə allergik reaksiya yaranma ehtimalı var. Nəticədə bu, allergik dermatit və ekzema xəstəliyi yarada bilər. İkincisi, dırnaq qoyan zaman dırnağın və dırnaq ətrafının zədələnməsindən müxtəlif infeksiyaların düşməsi də mümkündür. O cümlədən göbələk və bakterial infeksiyalar. Prosedur zamanı dərinin qanla ləkələnmiş alətlərlə işlənməsi ciddi infeksiyalara da yol aça bilər. Hepatit B, S, QİÇS kimi qanla keçən xəstəliklərə yoluxmaq mümkündür. Buna görə də dırnaq qoyma zamanı prosesə nəzarət etmək lazımdır. Sterilliyə, gigiyenaya diqqət edilməli, birdəfəlik alətlərdən istifadə olunmalıdır. İltihab olmasın deyə dəri, dırnaq zədələnməməlidir”.

## QİYMƏTLƏR NİYƏ FƏRQLİDİR?

Manikür xidmətləri 20-60 manat aralığında və bəzən də daha baha qiymətə təklif edilir. Qeyd etmək lazımdır ki, manikür prosesində istifadə olunan bütün materiallar, əsasən Çin istehsalıdır. Yəni müxtəlif salonlarda eyni prosedurun qiymət fərqi istifadə olunan materiallardan daha çox, onun hansı salonda, hansı usta tərəfində həyata keçirilməsindən asılıdır. Əgər salon şəhərin mərkəzində yerləşirsə, deməli, onlar həmin yer üçün daha çox icarə haqqı ödəyirlər. Analoji olaraq xidmətin qiymətini də yüksək edirlər. Amma şəhərin mərkəzindən bir qədər kənara çıxanda qiymətin nisbətən düşdüyünün şahidi oluruq. Həmçinin ustadan ustaya da fərq var. Əgər dırnaqlarınızı peşəkar manikür ustası düzəldirsə, xidmət haqqı hələ təzə öyrənən və özünə müştəri yığmaq mərhələsində olan gənc ustanın xidmət haqqından, əlbəttə ki, baha olacaq. Bir vacib məqam da var ki, dırnaq düzəltdirən xanımın istəyindən asılı olaraq dırnağın üstünə vurulan bəzək də əlavə ödənişə səbəb olur. Amma istənilən halda, mütləq şəkildə ilk növbədə sterilliyə diqqət edilməlidir.



# AZƏRBAYCANIN İLK BALERİNASI

Milli balet məktəbinin yaradıcılarından olan Qəmər Almaszadənin ölkəmizdə balet sənətinin inkişafında və təkmilləşməsində gördüyü işlər saysız-hesabsızdır. Yaxınları və tələbələri onu dərin hörmətlə anırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Əfsanəvi balerina Qəmər Almaszadəni səhnədə görən, ondan dərs alan nə qədər insan var? Təəssüf ki, o insanlar hazırda barmaqla sayılacaq qədər azdır. Görkəmli balerina haqqında kitablar yazılıb, filmlər çəkilib. Onu "Baletin şahzadəsi", "Şərq mədəniyyətinin parlaq ulduzu", "Azərbaycanda balet sənətinin əsasını qoyan balerina" adlandırıblar.

SSRİ xalq artisti, Azərbaycanın ilk balerinası, milli balet məktəbinin yaradıcılarından olan Qəmər Almaszadənin ölkəmizdə balet sənətinin inkişafında və təkmilləşməsində gördüyü işlər saysız-hesabsızdır.

Martın 10-u - doğum günü ərəfəsində əfsanəvi balerinanı xatırlamaq üçün Qəmər Almaszadəni tanıyan az sayda adamların izinə düşdük...

### "NƏ LAZIMDIRSA, MƏN DANIŞACAM... "

Jurnalist kimi hələ sağlığında qapısını döymüşdüm Qəmər Almaszadənin. Rəssamlar İttifaqının yerləşdiyi binada yaşayırdı. Qardaşı, qocaman teatr rəssamı Ənvər Almaszadə onun qulluğunda dururdu. Məni evə dəvət etdi. "Qəmər xanım xəstədir, heç kimlə görüşmür. Haqqında nə lazımdırsa, mən danışacam. Çünki bütün həyatı gözümün qarşısında keçib" dedi.

Çarpayıda sakitcə uzanan Qəmər xanımın obrazı isə indiyə kimi gözümün qarşısındadır.

## "BİZİ BİABIR ETMƏK İSTƏYİRSƏN?"

"Qəmər Almaszadə uşaq olanda Bakıda balet məktəbi yox idi. Sadəcə, şəxsi bir studiya vardı. Burada da əsasən qeyri-azərbaycanlı uşaqlar məşğul olurdu", - deyə qardaşı xatırladı: "Qəmər həmin studiyaya yazılan qonşudakı rəfiqəsinə qoşularaq bir gün evdən gizlin balet studiyasına gedir. Bu studiyaya yazılmaq üçün 6 manat pul ödəmək lazım idi. Qəmər heç kimə demədən 5 manat pul toplayır. Pulu çatmasa da, müəllimləri onun baletə olan həvəsini görüb Qəməri studiyaya qəbul edirlər".



Əlbəttə, Qəmərin o dövrdə səhnəyə çıxmaq istəyi atası tərəfindən yaxşı qarşılanmır. Anası mütərəqqi fikirli qadın idi. Atası isə "bizi biabır eləmək istəyirsən?" deyərək onun səhnəyə çıxmasına qadağa qoyur.

Ancaq dahi Üzeyir bəyin Qəmərə atalıq qayğısı, sənət yolunda irəliləməsinə dəstəyi bir gün atasının da qəlbini yumşaldır.

Beləcə Qəmər xanımın böyük səhnəyə yolu başlayır. Bu addımı atmaq isə o dövrdə olduqca çətin idi. Çünki hələ səhnədə qadın rollarını kişilər oynayırdı. Məhz belə dövrdə böyük səhnəyə çıxıb tamaşalarda iştirak etmək böyük qəhrəmanlıq və cəsarət tələb edirdi. Qəmər xanım lap gənc yaşlarından bu cəsarəti özündə tapır. O, cəmiyyətin heç cür qəbul edə bilmədiyi bir addımı atır.

"1933-cü ildə Üzeyir bəyin dəstəyi ilə Qəmər xanım Leninqrad şəhərindəki dünyaca məşhur Xoreoqrafiya məktəbinə daxil olur. Mariya Fyodorovna Ulanovanın tələbəsi olmaq ona balet sənətinin bütün sirlərini mənimsəməkdə kömək edir".

### BÖLGƏLƏRDƏN XALQ RƏQSLƏRİNİ SƏHNƏYƏ GƏTİRMƏK

1936-cı ildə Qəmər xanım təhsilini başa vuraraq Bakıya qayıdır, balet məktəbində və opera teatrında çalışır. Həmin il Üzeyir bəy Filarmoniyanın nəzdində Azərbaycan Xalq rəqsləri ansamblını yaradır və gənc Qəməri ansamblın bədii rəhbəri təyin edir. Üzeyir bəy Azərbaycanın bütün bölgələrindən xalq rəqslərini toplayıb böyük səhnəyə gətirməyi vacib vəzifə kimi irəli sürür. Üzeyir bəyin göstərişi ilə ansamblın nəzdində musiqiçilərdən, bəstəkar və kinooperatordan ibarət xüsusi ekspedisiya qrupları yaradılır. Onlar Qəmər xanımın rəhbərliyi ilə Azərbaycanın müxtəlif rayonlarına səfərə çıxır və xalq rəqslərini toplamağa başlayırlar. Həmin rəqslər sonra ansamblın repertuarına daxil edilərək peşəkar səviyyədə ifa olunur.

Ansambldakı yorulmaz fəaliyyəti ilə yanaşı, görkəmli balerina Opera Teatrında da çalışır. Qəmər xanım "Şah İsmayıl", "Nərgiz", "Şahsənəm", Üzeyir bəyin "Koroğlu" operalarında səhnəyə çıxaraq tamaşaçıların rəğbətini qazanır.



## "BİZ QƏMƏR XANIMA BORCLUYUQ"

Qəmər Almaszadənin yaxın qohumu Maira Almaszadə görkəmli balerinanın assistenti kimi çalışıb: "Qəmər xanım gözəl pedaqoq idi. Onun hamını heyran edən cazibədar görkəmi vardı. O, gözəl rəhbər idi. Bütün truppanı peşəkarlıqla idarə etməyi bacarırdı. Qəmər xanım dəhlizdə gedəndə hamı özünü yığışdırırdı. Teatrın direktoru da, mədəniyyət naziri də onun pərəstişkarları idi. O, həmçinin deputat seçilmişdi. Onun sözünü hamı eşidirdi. Görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin xanımı idi. Onların birliyi Azərbaycan balet sənətinin inkişafına böyük töhfələr verdi. Bəstəkar xüsusi olaraq Qəmər xanım üçün Azərbaycanın ilk baleti olan "Qız qalası"nı yazdı. Baş rolda Qəmər Almaszadə çıxış etdi. Mədəniyyətimizin ən parlaq incilərindən olan "Qız qalası" baletindəki Gülyanaq rolunu Qəmər xanım qeyri-adi yüksək ustalıqla ifa etdi və Azərbaycan balet məktəbinin əsasını yaratdı". M.Almaszadə deyir ki, ulu öndər Heydər Əliyevin Bakıda Xoreoqrafiya məktəbi tikdirməsinə görə Azərbaycanın balet məktəbi Qəmər xanıma minnətdar olmalıdır: "Prezident İlham Əliyev də bizim Xoreoqrafiya məktəbinə "Akademiya" statusu verdi".

### "ÖZÜMÜ HƏMİŞƏ XOŞBƏXT HESAB ELƏMİŞƏM Kİ.."

Tanınmış balet ustası, Xalq artisti Tamella Şirəliyeva da müəllimini ən xoş sözlərlə xatırlayır: "Qəmər Almaszadə görkəmli balerina olmaqla bərabər, peşəkar müəllim idi. O, Leninqradda əfsanəvi Ulanovanın tələbəsi olmuşdu. Müəllimindən öyrəndiklərini öz şagirdlərinə sevə-sevə öyrədirdi. Qəmər xanımın bütün şagirdləri məşhur balet ustaları oldular. Görkəmli balerina Leyla Vəkilova da onun tələbəsi idi". Balerina müəllimini həm də qayğıkeş insan kimi xatırlayır: "Mən uzaqda yaşayırdım. Bəzən dərsdən və ya məşqdən çıxanda gec olurdu. Qəmər xanım məni evinə aparırdı. Onun çox gözəl evdarlığı vardı. Süfrə açırdı, dadlı kotlet bişirirdi. Çox qonaqpərvər idi. Özünəməxsus səliqə-sahmanı vardı. Mən özümü həmişə xoşbəxt hesab eləmişəm ki, Qəmər xanım kimi müəllimin tələbəsi olmuşam".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
8 MART CÜMƏ 2024
www.kaspi.az

Qadın idmançılarımız müstəqilliyin ilk illərindən ölkəmizi beynəlxalq arenalarda layiqincə təmsil ediblər. Titullu, tanınmış idmançılarımızla yanaşı, gənc qızların əldə etdiyi uğurlar gələcəyə də ümidlə yanaşmağa əsas verir.









# ONLAR BİZİM QÜRURUMUZDURLAR

Azərbaycan cəmiyyətinin bütün sahələrində qadınlar və kişilər yanaşı addımlayırlar. İdman da bu baxımdan fərqlənmir. Hələ uzaq 2000-ci ildə Zemfira Meftahətdinova Sidneydə qızıl medal əldə etməklə müstəqillik dönəmində ilk qadın Olimpiya çempionumuz olmuşdu. Ondan sonra digər idmançılarımız bu ənənəni davam etdirərək dördilliyin ən böyük idman yarışında uğurla çıxış ediblər. Eyni zamanda, dünya və Avropa çempionatlarında, Qran-Pri və Böyük Dəbilqə yarışlarında, Universiada, İslam Həmrəyliyi Oyunları, Avropa Oyunları, MDB Oyunları kimi digər multiidman yarışlarında qadınlarımız böyük uğurlar əldə etməyi bacarıblar. Voleybol və həndbolda komanda şəklində əldə edilən uğurlara son olaraq qadın futbolumuz da qoşulub. Zəriflərimiz UEFA Millətlər Liqasında C Liqasının qrup qalibi olmaqla Avropanın ortababları sırasına adını yazdırıb.

### ÇEMPİON QADINLARIMIZ

Azərbaycan qadın idmançılarından bəhs edərkən ağıla ilk gələn adlardan biri, şübhəsiz, Mariya Stadnikdir. Əslən Ukraynadan olan güləşçi 2007-ci ildən Azərbaycanın idman şərəfini layiqincə qoruyur. Ölkə tarixinin ən titullu idmançılarından biri olan Mariya dörd dəfə Olimpiya Oyunlarının medalına sahib olub. O, buna nail olan üç qadın güləşçidən biridir. Stadnik iki dəfə dünya, 10 dəfə də Avropanın ən güclüsü adını qazanıb. Mariyanın medal kolleksiyasında çatışmayan yalnız Olimpiya qızılıdır ki, bu il onu da əldə edəcəyinə inam böyükdür. Stadnik əslən azərbaycanlı olmasa da, ölkə ilə bağlı sosial-siyasi məsələlərdə də haqq mövqeyimizi həmişə ifadə etməklə Azərbaycan insanında özünə sevgi qazanmağı bacarıb.

Karateçi İrina Zaretska barədə də oxşar ifadələri işlətmək olar. 2020-ci il Tokio Olimpiadasında gümüş medal əldə edən idmançı həm də ikiqat dünya və ikiqat Avropa çempionudur. O da həmyerlisi Stadnik kimi azərbaycanlı idmansevərlərin sevimlisinə çevrilməyə müvəffəq olub.

"Tərəqqi" medallı Fəridə Əzizova taekvondoda Azərbaycanı layiqincə təmsil edir. Çoxsaylı beynəlxalq turnirlərin qalibi olan idmançı iki dəfə dünya ikincisi, bir dəfə Avropa çempionatının gümüş medalçısı olub.

Qadın şahmatçılarımız isə komanda olaraq hazırda dünyanın ən güclülərindəndirlər. 2023-cü ildə Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva və Gülnar Məmmədovadan ibarət yığmamız Monteneqronun Budva şəhərində keçirilən Avropa çempionatında ikinci yeri tutub. Buna qədər qadın "iti zəka sahiblərimiz" üç dəfə qitə üçüncüsü olmağı bacarmışdılar.

Ayrıca Günay Məmmədzadə yeniyetmələr arasında dünya və Avropa çempionu, Gövhər Beydullayeva rapid üzrə 20 yaşa qədər gənclərin yarışında dünya çempionu, Ülviyyə Fətəliyeva 18 yaşadək şahmatçılar arasında Avropa çempionu olub. Bu şahmatçıların hər biri gəncdirlər və gələcəkdə daha böyük uğurlar əldə edəcəklərinə böyük inam var.

## QADIN PARALİMPİYA ÇEMPİONLARIMIZ

Azərbaycanın qadın idmançıları paralimpiya oyunlarında da ölkəmizi layiqincə təmsil edirlər. Təsadüfi deyil ki, hazırda iki aktiv Paralimpiya çempionumuz var. Yüngül atlet Lamiyə Vəliyeva 2020-ci ildə Tokioda keçirilmiş Paralimpiya Oyunlarında həm qızıl, həm gümüş medal qazanmağı bacarıb. 22 yaşlı idmançı keçən il Parisdə keçirilən dünya çempionatında iki dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, bu il təşkil olunacaq Paralimpiya Oyunlarının da əsas favoritlərindəndir. Lamiyə kimi Sevda Vəliyeva da Tokioda Azərbaycan bayrağını ən yüksəyə qaldırmağı bacarıb. 26 yaşlı cüdoçu karyerası ərzində Avropa çempionu, komanda yarışında isə dünya çempionatının bürüncünü qazanmağa müvəffəq olub.

## PERSPEKTİV VƏD EDƏN GƏNC XANIMLARIMIZ

Təcrübəli qadın idmançılarımızdan uğur estafetini almağa hazır olan kifayət qədər gənc xanımlar da var. 18 yaşlı Xədicə Qədəşova artıq ölkə idmanı tarixinə düşməyi bacarıb. Ötən il Xorvatiyanın paytaxtı Zaqrebdə yeniyetmələr arasında dünya çempionatında qızıl medal qazanan Qədəşova Azərbaycan cüdo tarixinin ilk qadın dünya çempionu olub.

17 yaşlı güləşçi Ruzanna Məmmədova da artıq adından bəhs etdirməyi bacarıb. O, 2022-ci ildə yeniyetmələr arasında həm dünya, həm də Avropa çempionu titulunu qazanıb. Digər Gənc güləşçi Jalə Əliyeva isə yeniyetmələr arasında bir sıra uğurlardan sonra ötən il yaşı 23-dək olan idmançılar arasında Zaqrebdə keçirilən Avropa çempionatında ikinci yerə çıxıb.

19 yaşlı Ayan Allahverdiyeva isə Azərbaycan qadınının zəkasını dünyaya nümayiş etdirməyə gənc yaşlarından başlayıb. O, keçən ilin noyabrında İtaliyada qız və oğlanlar arasında keçirilmiş dünya birinciliyində 11 oyundan 9,5 xal toplamaqla 18 yaşlı qızlar arasında dünya çempionu olub.

Göründüyü kimi, qadın idmançılarımız müstəqilliyin ilk illərindən ölkəmizi beynəlxalq arenalarda layiqincə təmsil ediblər. Titullu, tanınmış idmançılarımızla yanaşı, gənc qızların əldə etdiyi uğurlar gələcəyə də ümidlə yanaşmağa əsas verir.

